1

“AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ”

QAPALI SƏHMDAR CƏMİYYƏTİ

İstiqrazlar üzrə Baza Emissiya Prospektinin

hər birinin nominal dəyəri 1 000 (min) ABŞ dolları olan 100 000 (yüz min) ədəd faizli, təmin edilməmiş, sənədsiz adlı istiqrazların

# YEKUN ŞƏRTLƏRİ

№1

Bakı, 2022-ci il

**MÜNDƏRİCAT**

A. Bəyanatlar

B. Xülasə

C. İstiqrazlar buraxılışı haqqında yekun şərtlər

**Qeyd: Baza Emissiya Prospektinin mətnində "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC - emitent, ASCO, Gəmiçilik və ya Cəmiyyət adları altında çıxış edir.*

## A. BƏYANATLAR

Bu Yekun Şərtlər istiqrazların buraxılışına dair emitentin Baza Emissiya Prospekti ilə birgə oxunmalıdır

İstiqrazların buraxılışına dair Baza Emissiya Prospekti və onun əlavələrini buraxılışın anderrayteri olan PAŞA Kapital İnvestisiya Şirkəti QSC-nin, Bakı Fond Birjası QSC-nin və Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi QSC*-nin saytlarında, habelə Azərbaycan Respublikasının Mərkəzi Bankının dəstəklədiyi Məlumatların Elektron Açıqlanması Sistemindən əldə etmək olar.

Bu Yekun Şərtlər emitentin buraxılışının Baza Emissiya Prospektinin birinci buraxılışı üçün tərtib edilmişdir və buraxılışın xülasəsi bu Yekun Şərtlərə əlavə edilmişdir.

**Qeyd: Bu Yekun Şərtlərin mətnində Azərbaycan Xəzər Dəniz Gəmiçiliy" QSC - emitent, ASCO, Gəmiçilik və ya Cəmiyyət adları altında çıxış edir.*

Biz, aşağıda imza edənlər,

1. Bu Yekun Şərtləri tərtib etməzdən öncə "Emissiya prospektinə və informasiya memorandumuna dair tələblər haqqında Qaydalar" ilə tanış olduğumuzu təsdiq edirik;
2. Bu Yekun Şərtlərə daxil edilmiş məlumatların həqiqi faktlar əsasında olduğu, heç bir faktın gizlədilmədiyi və bunun üçün bütün lazımi tədbirlərin görüldüyünü təsdiq edirik.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Sədri

**Vəliyev Rauf Göyüş oğlu**

____________________

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Sədr müavini

**Fərəcli Cəlal Həsənağa oğlu**

____________________

## B. Xülasə

### 1. Xəbərdarlıqlar

1.1. Bu sənəd Yekun Şərtlərin giriş hissəsidir.

1.2. Qiymətli kağızlara investisiya etmək barədə hər hansı bir qərar investorun Baza Emissiya Prospektini (informasiya memorandumunu) və bu Yekun Şərtləri oxuduqdan sonra həyata keçirilməlidir.

1.3. Baza Emissiya Prospektində və bu Yekun Şərtlərdə olan məlumatların yanlış, qeyri-dəqiq, ziddiyyətli olduğu və ya qiymətli kağızlara investisiya edib-etməmək barədə qərar verən investorlara kömək etmək məqsədilə əsas informasiyanın verilmədiyi zaman Baza Emissiya Prospektini və bu Yekun Şərtləri hazırlamış şəxslər mülki məsuliyyəti daşıyırlar.

2. Baza Emissiya Prospektinin xülasəsindən bu buraxılış barədə məlumat: Bu buraxılış haqqında məlumat Baza Emissiya Prospektinin C bölməsinin 6-cı bəndində öz əksini tapmışdır.

3. Baza Emissiya Prospekti ilə müəyyən edilmiş və bu buraxılışa aid edilən hüquqlar: Bu buraxılışa aid edilən hüquqlar Baza Emissiya Prospekti ilə istiqrazlara aid edilmiş hüquqlar ilə eynidir.

## C. İstiqrazlar buraxılışı haqqında yekun şərtlər

1. **İstiqrazların növü**: Faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazlar
2. **Təklif edilən istiqrazların sayı və nominal dəyəri**: Bu Yekun Şərtlər üzrə təklif edilən istiqrazların sayı 100 000 (yüz min) ədəd, hər bir istiqrazın nominal dəyəri isə 1 000 (min) ABŞ dolları təşkil edir
3. **İstiqrazların valyutası:** ABŞ dolları
4. **İstiqrazlarla təsbit olunan hüquqlar, onların həyata keçirilmə qaydası və onlara dair məhdudiyyətlər:** İstiqraz mülkiyyətçiləri aşağıdakı hüquqlara malikdirlər:
   - Emitentin ləğvi, yaxud Emitentin kreditorları qarşısında olan öhdəliklərinin icrasına dair təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan edildikdə istiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;
   - İstiqrazların tədavül müddəti bitdikdə istiqrazların nominal dəyərini Emitentdən almaq;
   - İstiqrazların tədavül müddəti ərzində istiqrazların nominal dəyərindən illik 6 (altı) faiz həcmində kupon ödənişi almaq;
   - İstiqraz mülkiyyətçiləri öz hüquqlarını bilavasitə özləri və ya qanunvericiliklə nəzərdə tutulmuş qaydada səlahiyyətli nümayəndələri vasitəsi ilə həyata keçirə bilərlər.
   - Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

   İstiqrazlarla təsbit olunan hüquqların həyata keçirilməsinə dair qanunvericiliklə müəyyən edilmiş hallardan başqa məhdudiyyətlər nəzərdə tutulmamışdır.

5. **Faiz və əsas borcun ödənilməsi ilə bağlı iddia müddəti:** Əsas borc və faizin ödənilməsi ilə bağlı iddia müddəti Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 372-384-cü maddələri ilə tənzimlənir.
6. **İstiqrazlar üzrə ödənilməli faizlər:** İstiqrazlar üzrə faiz (kupon) gəlirliyi illik 6 (altı) faiz təşkil edir, faiz (kupon) ödənişləri ildə 2 (iki) dəfə, hər altı aydan bir həyata keçiriləcəkdir.
7. **Faiz dərəcəsi müəyyən olunmadığı halda istiqrazın faiz dərəcəsinin hesablanması üsulu:** Faiz dərəcəsi müəyyən olunmuşdur.
8. **Bazarda baş verən hadisələrin istiqrazların baza aktivinə (olduqda) və istiqrazlar üzrə hesablaşmalara mənfi təsiri barədə məlumat. Belə halların tənzimlənməsi qaydaları və ya prosedurları**: İstiqrazlar üzrə baza aktivi mövcud deyil. Bazarda baş verən hadisələr istiqrazlar üzrə hesablaşmalara mənfi təsir göstərməyəcəkdir.
9. **Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:** İstiqrazlar təmin edilməmiş formada buraxılır.
10. **İstiqrazların geri satın alınmasının şərtləri:** İstiqrazın tədavül müddəti bitməmiş emitentin istiqrazları investorlardan geri almaq öhdəliyi yoxdur, lakin istiqrazın tədavül müddətinə 2 (iki) il qalmış, emitent istiqrazları nominal dəyər ilə investorlardan geri almaq hüququ qazanır.

11. **Gəlirlilik dərəcəsi və onun hesablanması qaydası:** İstiqrazlar üzrə faiz (kupon) gəlirliyi illik 6 (altı) faiz təşkil edir. İstiqrazlar üzrə toplanmış faizlərin hesablanması aşağıdakı düstura uyğun olaraq aparılır:

$$TF = \frac{N * D * G}{360}$$

Burada:

$TF$ – Bir istiqraz üzrə toplanmış faizlər (ABŞ dolları ilə ifadə olunur);

$N$ – Bir istiqrazın nominal dəyəri (1 000 (bir min) ABŞ dolları);

$D$ – İstiqrazların illik faiz dərəcəsi (6 (altı) faiz);

$G$ –. Son faiz (kupon) ödənişindən keçən günlərin sayı.

12. **İnvestorları təmsil edən təşkilat barədə (olduqda) məlumat**: Mövcud deyil.
13. **İstiqrazların təklif qiyməti məlum olmadığı təqdirdə istiqrazların qiymətinin müəyyənləşdirmə metodunu göstərilməklə bu prosesdə iştirak edən və məsuliyyət daşıyan şəxs(lər) barədə məlumat:** Bir istiqrazın təklif qiyməti 1 000 (min) ABŞ dolları təşkil edir.
14. **İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda səhmlərin ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri:** İstiqrazların kütləvi təklif üsulu ilə ilkin yerləşdirilməsi bu Baza Emissiya Prospektinin müvafiq buraxılışı üzrə Yekun Şərtlərinin dövlət qeydiyyatına alınmasından sonra "Bakı Fond Birjası" QSC-nin ticarət platforması vasitəsilə həyata keçiriləcəkdir. İstiqrazların listinqə daxil edilməsi ilə bağlı müraciət istiqrazın buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir.
15. **Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat:**

15.1. **Təklifinin səbəbləri və istiqrazların yerləşdirilməsindən əldə edilən vəsaitlərin istifadə edilməsi barədə ətraflı məlumat: "Bakı Fond Birjası" QSC.** Emissiya prosesində iştirak edən "Bakı Fond Birjası" QSC yeni emissiya ediləcək istiqrazların listinqə daxil edilməsi, ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarlarda alğı-satqısı üçün mütəşəkkil ticarəti təşkil edir. İstiqrazların emissiyası prosesində "Bakı Fond Birjası" QSC-nin vəzifələri aşağıdakı kimidir:

- İstiqrazların listinqə daxil edilməsi;
- İstiqrazların hərracının təşkil edilməsi;
- İstiqrazların təkrar bazar əməliyyatlarının aparılması üçün müvafiq ticarət sisteminin təmin edilməsi;

15.2. **Azərbaycan Respublikasının Mili Depozit Mərkəzi.** Azərbaycan Respublikasının Mili Depozit Mərkəzi qeyri-kommersiya hüquqi şəxs formasında təsis edilmiş Azərbaycan Respublikası ərazisində

depozitar sistemini idarə edən mərkəzi depozitardır. İstiqrazların emissiyası prosesində Azərbaycan Respublikasının Mili Depozit Mərkəzi vəzifələri aşağıdakı kimidir:

- İstiqrazların saxlanması və uçotunun aparılması;
- İstiqraz mülkiyyətçilərin reyestrinin aparılması;
- Emitentin ödəniş agenti qismində istiqraz üzrə istiqraz mülkiyyətçilərinə ödənişlərin (faiz ödənişlərinin və tədavül müddətinin sonunda istiqrazın nominal dəyərinin) həyata keçirilməsi xidmətinin göstərilməsi.

15.3. **"PAŞA Kapital İnvestisiya Şirkəti" QSC (anderrayter).** Müvafiq lisenziya əsasında investisiya şirkəti fəaliyyətini həyata keçirir. İstiqrazların buraxılışı və yerləşdirilməsi prosesində anderrayterin vəzifələri aşağıdakılardır:

- İstiqrazların abunə yazılışı dövründə toplanılan alış sifarişlərinə qarşı Emitentin satış sifarişini daxil etmək;
- İstiqrazların abunə yazılışı dövründə öz müştərilərindən alış sifarişləri toplamaq;
- Sifarişlərin uzlaşdırılması nəticəsində əmələ gələn alğı-satqı əqdləri barədə hesabat tərtib edərək Emitentə təqdim etmək.

16. **Əldə olunan vəsaitlərin nəzərdə tutulan layihələri maliyyələşdirmək üçün kifayət etmədiyi təqdirdə tələb olunan əlavə pul vəsaitlərinin məbləği və mənbələri:** Bank kreditləri və bölüşdürülməmiş mənfəət hesabına maliyyələşdirilməsi nəzərdə tutulur. Bu vəsaitlərin məbləği istiqrazlardan əldə olunan vəsaitdən asılı olacaqdır.
17. **Əldə olunan vəsaitlərin istifadəsi, digər müəssisələrinin alışını maliyyələşdirmək üçün və ya borcları qaytarmaq, azaltmaq, restrukturizasiya etmək üçün və ya başqa aktivləri əldə etmək üçün istifadə olunması barədə məlumat:** İstiqraz buraxılışından əldə olunan vəsaitlər bu məqsədlər üçün istifadə edilməyəcəkdir.
18. **İstiqrazların saxlanması və onlara hüquqların uçotunu aparan Mərkəzi Depozitarın olduğu yer:** Azərbaycan Respublikası, Bakı şəhəri, AZ1141, Həsən bəy Zərdabi prospekti 2A, Şokolad Tauer.
19. **İstiqrazlar üzrə gəlirliyin faiz dərəcəsi (müəyyən olunduqda):** İstiqrazlar üzrə faiz (kupon) dərəcəsi illik 6 (altı) faiz təşkil edir.
20. **İstiqrazların və faizlərin ödənilmə tarixi və müddəti:** Bu Yekun Şərtlər üzrə təklif edilən istiqrazlar üzrə faizlər ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən 6 (altı) aydan bir (ayda günlərin sayı 30 (otuz), ildə günlərin sayı 360 (üç yüz altmış) götürülməklə), istiqrazın nominal dəyəri isə ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən 5 (beş) ilin sonunda ödəniləcəkdir.
21. **Ödənişlər üzrə hesablaşma agentinin adı:** İstiqrazlar üzrə faiz (kupon) ödənişləri və nominal dəyər üzrə əsas ödəniş Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi vasitəsilə həyata keçiriləcəkdir. İstiqrazların yerləşdirilməsi zamanı pul vəsaitlərinin toplanması "PAŞA Kapital İnvestisiya Şirkəti" QSC-nin hesablaşma agenti olan "PAŞA Bank" ASC vasitəsi ilə yerinə yetiriləcəkdir.

22. **İstiqrazların emissiyası haqqında qərarın qəbul edilməsi tarixi, nömrəsi və qərarı qəbul etmiş emitentin idarəetmə orqanının adı:** Azərbaycan İnvestisiya Holdinqinin Müşahidə Şurasının 2022-ci il 7 dekabr tarixli 21 nömrəli protokolu.
23. **Təklifin və yerləşdirmənin başlanma və başa çatma tarixləri:** İstiqrazlar abunə yazılışı vasitəsi ilə təklif ediləcəkdir. İstiqrazlara abunə yazılışı nəzarət orqanı (Azərbaycan Respublikasının Mərkəzi Bankı) tərəfindən bu Yekun Şərtlərinin təsdiq edilməsindən sonra 3 (üç) iş günü ərzində başlanacaq və başlandığı tarixdən 2 (iki) ay müddətinə başa çatacaqdır. Abunə yazılışının başlanması və başa çatma tarixləri buraxılışın anderrayteri PAŞA Kapital İnvestisiya Şirkəti QSC tərəfindən öz veb saytında və kütləvi informasiya vasitələrində açıqlanacaqdır. Abunə yazılışı dövründə istiqrazları əldə etmək istəyən investor PAŞA Kapital İnvestisiya Şirkəti QSC–yə müraciət edə bilər. Abunə yazılışı müddəti bitdiyi tarixdən 5 (beş) iş günü ərzində istiqrazların Bakı Fond Birjası QSC-nin ticarət platformasında yerləşdirilməsi başlanacaqdır. Yerləşdirmənin başlanma və başa çatma tarixləri barədə məlumat PAŞA Kapital İnvestisiya Şirkəti QSC tərəfindən öz veb saytında və kütləvi informasiya vasitələrində açıqlanacaqdır.
24. **Təklifin qüvvədə olduğu müddət ərzində prospektə düzəlişlərin edilə biləcəyi müddət və düzəlişlərin edilməsi qaydası:** Baza Emissiya Prospektində və bu Yekun Şərtlərdə dəyişikliklərin dövlət qeydiyyatına alınması üçün ərizə müvafiq qərarın qəbul edildiyi gündən 5 (beş) iş günü ərzində qanunvericilikdə müəyyən edilmiş orqana (quruma) təqdim edilir. Baza Emissiya Prospektində və bu Yekun Şərtlərdə dəyişikliklər müvafiq ərizənin daxil olduğu gündən 10 (on) iş günü ərzində dövlət qeydiyyatına alınır. Qeyd olunan dəyişikliklər dövlət qeydiyyatına alındığı tarixdən 5 (beş) iş günü ərzində vahid məlumat resursunda ("Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş məlumatların dərc edildiyi, ictimaiyyət üçün açıq olan və bu qanunla müəyyən edilmiş orqan (qurum) tərəfindən yaradılan avtomatlaşdırılmış sistem), fond birjasının və Emitentin internet səhifəsində açıqlanır və açıqlandığı tarixdən 15 (on beş) iş günü bitdikdən sonra qüvvəyə minir.
25. **Təklifin dayandırılması və ya təxirə salınması hallarının izahı:** "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununun 9-cu maddəsində nəzərdə tutulmuş hallarda təklif dayandırıla bilər. Bu barədə məlumat Emitent tərəfindən vahid məlumat resursunda ("Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının qanununda nəzərdə tutulmuş məlumatların dərc edildiyi, ictimaiyyət üçün açıq olan və bu qanunla müəyyən edilmiş orqan (qurum) tərəfindən yaradılan avtomatlaşdırılmış sistem) fond birjasının və Emitentin internet səhifəsində açıqlanır.
26. **İstiqrazlara abunə yazılışı keçirildikdə aşağıdakı məlumat:**

26.1. **İstiqrazlara abunə yazılışının qaydası:** İstiqrazlar abunə yazılışı vasitəsi ilə təklif ediləcəkdir. İstiqrazlara abunə yazılışı nəzarət orqanı (Azərbaycan Respublikasının Mərkəzi Bankı) tərəfindən bu Yekun Şərtlərinin təsdiq edilməsindən sonra 3 (üç) iş günü ərzində başlanacaq və başlandığı tarixdən 2 (iki) ay müddətinə başa çatacaqdır. Abunə yazılışının başlanması və başa çatma tarixləri buraxılışın anderrayteri PAŞA Kapital İnvestisiya Şirkəti QSC tərəfindən öz veb saytında və kütləvi informasiya

vasitələrində açıqlanacaqdır. Abunə yazılışı dövründə istiqrazları əldə etmək istəyən investor PAŞA Kapital İnvestisiya Şirkəti QSC–yə müraciət edə bilər. Abunə yazılışı müddəti bitdiyi tarixdən 5 (beş) iş günü ərzində istiqrazların Bakı Fond Birjası QSC-nin ticarət platformasında yerləşdirilməsi başlanacaqdır. Yerləşdirmənin başlanma və başa çatma tarixləri barədə məlumat PAŞA Kapital İnvestisiya Şirkəti QSC tərəfindən öz veb saytında və kütləvi informasiya vasitələrində açıqlanacaqdır.

26.2. **Abunə yazılışı zamanı sifarişlərin geri çağırılması və abunəçilər tərəfindən ödənmiş artıq məbləğin geri qaytarılması qaydası və müddəti:** Abunə yazılışı müddəti ərzində investorlar tərəfindən verilmiş sifarişlərin geri qaytarılmasına və ya dəyişdirilməsinə yol verilmir. İstiqrazların yerləşdirilməsindən sonra, abunə yazılmış investorların icra edilməmiş sifarişləri üzrə məbləğ (artıq məbləğ) həmin investora xidmət edən investisiya şirkəti tərəfindən yerləşdirmə müddətinin bitməsi tarixindən etibarən 3 (üç) iş günü ərzində qaytarılacaqdır.

26.3. **Abunə yazılışının (investisiya etmək üçün qiymətli kağızların sayına və ya məcmu miqdarına) minimum və/və ya maksimum məbləği:** Bu Yekun Şərtlər üzrə təklif edilən istiqrazların minimal satış dəyəri 1 000 (min) ABŞ dolları təşkil edəcəkdir. Bu məbləğdən aşağı qiymətə verilən sifarişlərin qəbul edilməsinə yol verilmir. Abunə yazılışı dövründə toplanılan sifarişlərin həcmi bu Yekun Şərtlər üzrə təklif edilən istiqrazların həcmindən çox olduğu təqdirdə, yerləşdirmə verilmiş sifarişlərin həcminə uyğun olaraq mütənasib şəkildə həyata keçiriləcəkdir.

26.4. **İstiqrazlar hərrac vasitəsilə yerləşdirildikdə, hərracın keçirilməsi qaydası:** İstiqrazlar abunə yazılışı vasitəsi ilə yerləşdiriləcəkdir.

27. **İstiqrazların dəyərinin ödənilməsi və investorların istiqrazlarla təchizatı şərtləri və qaydası:** İstiqrazların yerləşdirilməsi nəticəsində istiqrazlar investorların depo hesabına köçürülərək dondurulacaq, pul vəsaitləri isə anderrayterin hesablaşma agentində açılmış bank hesabına köçürüləcəkdir. Baza Emissiyasının yekunları haqqında hesabat qanunvericiliklə müəyyən edilmiş orqan (qurum) tərəfindən təsdiq edildikdən sonra, investorların depo hesabında olan istiqrazlar dondurulmadan azad ediləcək, pul vəsaitləri isə Emitentin bank hesabına köçürüləcəkdir.

28. **İstiqrazların yerləşdirilməsinin başlanması barədə investorlara bildirişlərin göndərilməsi qaydası və yerləşdirmənin xəbərdarlıq edilməzdən öncə başlaya bilib-bilməməsi barədə məlumat:** İstiqrazlar abunə yazılışı vasitəsi ilə təklif ediləcəkdir. İstiqrazlara abunə yazılışı nəzarət orqanı (Azərbaycan Respublikasının Mərkəzi Bankı) tərəfindən istiqrazların buraxılışının dövlət qeydiyyatına alınması və bu Baza Emissiya Prospektinin müvafiq buraxılışı üzrə Yekun Şərtlərinin təsdiq edilməsindən sonra 3 (üç) iş günü ərzində başlanacaq və başlandığı tarixdən 2 (iki) ay ərzində başa çatacaqdır. Abunə yazılışının başlanması və başa çatma tarixləri buraxılışın anderrayteri PAŞA Kapital İnvestisiya Şirkəti QSC tərəfindən öz veb saytında və kütləvi informasiya vasitələrində açıqlanacaqdır. Abunə yazılışı dövründə istiqrazları əldə etmək istəyən investor PAŞA Kapital İnvestisiya Şirkəti QSC–yə müraciət edə bilər. Abunə yazılışı müddəti bitdiyi tarixdən 5 iş günü ərzində istiqrazların Bakı Fond Birjası QSC-nin ticarət platformasında yerləşdirilməsi başlanacaqdır.

Yerləşdirmənin başlanma və başa çatma tarixləri barədə məlumat PAŞA Kapital İnvestisiya Şirkəti QSC tərəfindən öz veb saytında və kütləvi informasiya vasitələrində açıqlanacaqdır.

29. **İstiqrazların təklif qiyməti:** Bir istiqrazın təklif qiyməti 1 000 (bir min) ABŞ dolları təşkil edir.

30. **İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:**

- Vergilər. İstiqrazlar üzrə ödənilən faiz (kupon) ödənişindən ödəmə mənbəyində tutulan vergidən fiziki şəxslər 2028-ci ilin fevral ayının 1-dək azaddırlar. Hüquqi şəxslərin istiqrazlar üzrə əldə etdiyi faiz gəlirləri mənfəət vergisinə cəlb olunur. İstiqrazların tədavüldə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat Emitent və ya anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır.
- Xərclər. İstiqrazın əldə olunması ilə bağlı xidmət haqqı xərcləri investisiya şirkətinin tarif siyasətindən asılıdır. Bu barədə məlumat almaq istəyən investorlar onlara investisiya xidməti göstərən investisiya şirkətinə müraciət etməlidir.

31. **İstiqrazları öhdəlik götürməklə və ya öhdəlik götürmədən yerləşdirən anderrayter barədə məlumat (adı, lisenziyasi və ünvanı). Xidmət haqqı:**

- Adı: "PAŞA Kapital İnvestisiya Şirkəti" QSC (anderrayter istiqrazları öhdəlik götürmədən yerləşdirilməsini həyata keçirəcəkdir).
- Lisenziyası: Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən 09.03.2016-cı il tarixində verilmiş 088806 nömrəli "investisiya şirkəti fəaliyyəti"nə dair Lisenziya
- Ünvanı: Bakı şəhəri, Cəfər Cabbarlı küçəsi 44 (Caspian Plaza), AZ1065, Azərbaycan
- Xidmət haqqı: Ümumi yerləşdirilmiş məbləğin 0,3 (sıfır tam onda üç) faizi həcmində müəyyən olunmuşdur.

32. **Emitentin qiymətli kağızlarının ticarətə buraxıldığı tənzimlənən bazarlar barədə məlumat:** Hal-hazırda emitentin qiymətli kağızları tənzimlənən bazarda ticarət edilmir. ASCO istiqrazların kütləvi təklif üsulu ilə ilkin yerləşdirilməsi bu Baza Emissiya Prospektinin müvafiq buraxılışı üzrə Yekun Şərtlərinin dövlət qeydiyyatına alınmasından sonra "Bakı Fond Birjası" QSC-nin ticarət platforması vasitəsilə həyata keçiriləcəkdir. İstiqrazların listinqə daxil edilməsi ilə bağlı müraciət istiqrazın buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir.

33. **Marketmeyker(lər) barədə məlumat:** Mövcud deyil. Bazar şərtlərini nəzərə alaraq, Emitent istiqrazların likvidliyinin qorunması və ya artırılması məqsədi ilə market-meyker(ləri) cəlb edə bilər.

"AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ"

QAPALI SƏHMDAR CƏMİYYƏTİ

**Hər birinin nominal dəyəri 1 000 (min) ABŞ dolları olan 150 000 (yüz əlli min) ədəd faizli, təmin edilməmiş, sənədsiz adlı istiqrazların**

# BAZA EMİSSİYA PROSPEKTİ

Bakı, 2022-ci il

**MÜNDƏRİCAT**


**A.** Baza Emissiya Prospektinə daxil edilmiş bütün məlumatlara dair məsul olan şəxslərin siyahısı

**B.** Baza Emissiya Prospektinə daxil edilmiş məlumatların həqiqi faktlar əsasında olduğu, heç bir faktın gizlədilmədiyi və bunun üçün bütün lazımi tədbirlərin görüldüyü barədə məsul şəxslərin bəyanatı

**C.** Xülasə

**D.** "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC* barədə məlumat

**E.** İstiqrazlar barədə məlumat

**F.** İstiqrazlar haqqında ümumi məlumat

**G.** "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin maliyyə hesabatları (əlavə edilir)

**H.** Emitentin təsis sənədləri (əlavə edilir)


**Qeyd: Baza Emissiya Prospektinin mətnində "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC - emitent, ASCO, Gəmiçilik və ya Cəmiyyət adları altında çıxış edir.*

**A.** Baza Emissiya Prospektinə daxil edilmiş bütün məlumatlara dair məsul olan şəxslərin siyahısı

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Sədri

**Vəliyev Rauf Göyuş oğlu**

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Sədr müavini

**Fərəcli Cəlal Həsənağa oğlu**

## B. Baza Emissiya Prospektinə daxil edilmiş məlumatların həqiqi faktlar əsasında olduğu, heç bir faktın gizlədilmədiyi və bunun üçün bütün lazımi tədbirlərin görüldüyü barədə məsul şəxslərin bəyanatı

Biz, aşağıda imza edənlər,

1. Bu Baza Emissiya Prospektini tərtib etməzdən öncə "Emissiya prospektinə və informasiya memorandumuna dair tələblər haqqında Qaydalar" ilə tanış olduğumuzu təsdiq edirik;
2. Bu Baza Emissiya Prospektinə daxil edilmiş məlumatların həqiqi faktlar əsasında olduğu, heç bir faktın gizlədilmədiyi və bunun üçün bütün lazımi tədbirlərin görüldüyünü təsdiq edirik.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Sədri

**Vəliyev Rauf Göyuş oğlu**

____________________________

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Sədr müavini

**Fərəcli Cəlal Həsənağa oğlu**

____________________________

## C. Xülasə

### 1. Xəbərdarlıqlar

1.1. Bu sənəd Baza Emissiya Prospektinin giriş hissəsidir.

1.2. Qiymətli kağızlara investisiya etmək barədə hər hansı bir qərar investorun Baza Emissiya Prospektini (informasiya memorandumunu) oxuduqdan sonra həyata keçirilməlidir.

1.3. Baza Emissiya Prospektində olan məlumatların yanlış, qeyri-dəqiq, ziddiyyətli olduğu və ya qiymətli kağızlara investisiya edib-etməmək barədə qərar verən investorlara kömək etmək məqsədilə əsas informasiyanın verilmədiyi zaman Baza Emissiya Prospektini hazırlamış şəxslər mülki məsuliyyəti daşıyırlar.

### 2. Emitent haqqında məlumat

2.1. **Emitentin tam adı**: "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

2.2. **Emitentin olduğu yer və təşkilati-hüquqi forması, emitentin qeydiyyatda olduğu ölkə**: Azərbaycan Respublikası, Bakı şəh. Mikayıl Useynov küçəsi, 2, Qapalı Səhmdar Cəmiyyət

2.3. **Emitentə və onun əməliyyat apardığı sahələrə təsir edən məlum tendensiyaların təsviri**: Hazırda, regionda mövcud geo-siyasi vəziyyətlə əlaqədar, bir sıra yüklərin Xəzər üzərindən keçən marşrutlara yönəldilməsi tendensiyası mövcuddur.

2.4. **Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri. Emitentin qrupda olan şəxslərdən asılı olduğu təqdirdə bu barədə qeyd:** ASCO və onun təsisçiliyi ilə yaradılmış törəmə müəssisələrinin fəaliyyəti dəniz nəqliyyat xidmətinin demək olar ki bütün sahələrini əhatə edir. Emitent daxil olduğu qruplarda ana şirkət kimi iştirak etdiyinə görə heç bir qrupdan asılılığı yoxdur. Şirkətin əsas törəmə müəssisələri və onlarda iştirak payı aşağıdakı kimidir:

| **Müəssisənin adı** | **Əsas fəaliyyəti** | **Təsis edildiyi ölkə** | **Kapitalda pay, % 2020** | **Kapitalda pay, % 2021** |
|---|---|---|---|---|
| ASCO Turkey Gemi İşletmeciliyi AŞ | Agent | Türkiyə | 100 | 100 |
| "ASCO Logistcs" MMC | Logistika | Azərbaycan | 100 | 100 |
| "ASCO Mühafizə" MMC | Mühafizə | Azərbaycan | 100 | 100 |
| "ASCO Nəqliyyat" MMC | Nəqliyyat | Azərbaycan | 100 | 100 |
| Azərbaycan Dövlət Dəniz Akademiyası | Tədris | Azərbaycan | 100 | 100 |
| Azərbaycan Dənizçilik Kolleci | Tədris | Azərbaycan | 100 | 100 |
| Xəzər Dəniz Nəqliyyatı Layihə-Axtarış və Elmi-Tədqiqat İnstitutu | Elmi-tədqiqat işlərinin həyata keçirilməsi | Azərbaycan | 100 | 100 |
| "Yaxt Klub" MMC | Mehmanxana və iaşə | Azərbaycan | 100 | 100 |

| | | | | |
|---|---|---|---|---|
| "Dənizçi Təmir-Tikinti" MMC | Tikinti | Azərbaycan | 100 | 100 |
| "Dənizçi" Mənzil Tikintisi Kooperativi | Tikinti | Azərbaycan | 100 | 100 |
| "Xəzər Dəniz Gəmiçiliyi" MMC | Agent | Rusiya | 99 | 99 |
| Azerbaijan Caspian Shipping Limited | Agent | Malta | 100 | 100 |
| "Xəzər Dəniz Mühəndislik Bürosu" MMC | Gəmi layihələndirilməsi | Azərbaycan | 51 | 51 |

2.5. **Gəlir proqnozunun mövcud olduğu zaman bu barədə qeyd:** Mövcud deyil

2.6. **Audit edilmiş maliyyə məlumatlarına dair auditorun rəyinin qısa təsviri:** Cəmiyyətin 31 dekabr 2021-ci il tarixinə olan konsolidasiya edilmiş maliyyə hesabatları Ernst & Young Holdings audit şirkəti tərəfindən audit edilmişdir və Cəmiyyətin maliyyə vəziyyətinin, həmin tarixdə başa çatan il üzrə maliyyə nəticələrinin, pul vəsaitlərinin hərəkətinin Beynəlxalq Maliyyə Hesabatları Standartlarına (BMHS) uyğun olaraq bütün əhəmiyyətli aspektlər üzrə düzgün əks etdirilməsinə dair auditor rəyi verilmişdir.

2.7. **Son üç maliyyə ili ərzində hər maliyyə ili üzrə seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir. Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri emitentin fəaliyyətində dəyişikliyin olub-olmaması barədə məlumat. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir:**

| min manatla | **2019** | **2020** | **2021** |
|---|---|---|---|
| Gəlirlər | 479 192 | 421 049 | 459 133 |
| AFVƏM* | 170 496 | 139 135 | 150 203 |
| Xalis mənfəət (zərər) | 63 873 | 45 043 | 51 792 |
| Cəmi aktivlər (dövrün sonuna) | 1 212 266 | 1 263 330 | 1 291 208 |
| Cəmi öhdəliklər (dövrün sonuna) | 234 952 | 230 973 | 202 959 |
| Cəmi kapital (dövrün sonuna) | 977 314 | 1 032 357 | 1 088 249 |
| Pul vəsaitləri (dövrün sonuna) | 3 087 | 4 743 | 6 312 |

* Amortizasiya, faizlər və vergidən əvvəlki mənfəət

Son dərc olunmuş maliyyə hesabatlarından bəri emitentin fəaliyyətində ciddi dəyişikliklər baş verməmişdir.

2.8. **Emitentin ödəmə qabiliyyətinin qiymətləndirilməsinə təsir edən ən son hadisələr:** Hazırda, regionda mövcud geo-siyasi vəziyyətlə əlaqədar, bir sıra yüklərin Xəzər üzərindən keçən marşrutlara yönəldilməsi mövcuddur. Bu tendensiya öz növbəsində nağd pul dövriyyəsinə müsbət təsir göstərmiş və şirkətin ödəmə qabilliyyətini artırmışdır.

2.9. **Emitentin əsas fəaliyyətlərinin təsviri:** ASCO-nun aşağıdakı əsas fəaliyyət sahələri mövcuddur:

- ***<u>Yükdaşımalar:</u>*** Xəzər dənizində və Xəzərdən kənar hövzələrdə - əsasən Qara və Aralıq dənizi hövzələrində müxtəlif növ yüklərin, o cümlədən neft və neft məhsulları, dənli bitkilər, gübrə, metal və taxta məmulatları, eləcə də, dəmir yolu vaqonları, avtotexnika (TİR) və konteynerlərin daşınması;

- ***İxtisaslaşmış ofşor xidmətlərin göstərilməsi:*** "Xəzər dənizində, xüsusən də Xəzərin Azərbaycan sektorunda həyata keçirilən strateji əhəmiyyətli neft-qaz layihələrinə ixtisaslaşmış ofşor xidmətlərin göstərilməsi, o cümlədən dəniz özüllərinin, estakadaların tikintisi, geoloji-kəşfiyyat, neft-qaz kəmərlərinin çəkilişi, onların istismar dövründə təmiri, dənizdəki neft obyektlərinin yanğından mühafizəsi, neftçilərin iş yerlərinə çatdırılması kimi işlərin yerinə yetirilməsi və dəniz dibində mineral ehtiyatların kəşfiyyatı və hasilatı ilə əlaqədar kompleks xidmətlərin təqdim edilməsi."
- ***Gəmi təmiri:*** ASCO-ya və Xəzər dənizində fəaliyyət göstərən digər gəmiçilik şirkətlərinə məxsus bütün növ gəmilərin təmir edilməsi, eləcə də kiçik su tutumlu yeni gəmilərin inşa edilməsi.

2.10. **Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətinin xüsusiyyəti:** Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin 100% səhmi Azərbaycan Respublikasına məxsusdur. ASCO-nun fəaliyyəti üzərində səhmdar nəzarəti ən qabaqcıl beynəlxalq korporativ idarəetmə standartlarına uyğun olaraq təşkil edilmişdir. Səhmdarın səlahiyyətləri Azərbaycan Respublikasının Prezidenti və Azərbaycan İnvestisiya Holdinqi tərəfindən həyata keçirilir. ASCO üzərində nəzarət səhmdar tərəfindən yaradılmış və mühüm səlahiyyətlərinə malik olan Müşahidə Şurası vasitəsilə təmin edilir. Nəzarətin daha səmərəli təşkili üçün Müşahidə Şurasına tabe olan Audit Komitəsi və Daxili Audit departamenti yaradılmışdır. Eyni zamanda, ASCO-nun cari fəaliyyətinin icrasına nəzarət kollegial orqan – İdarə Heyəti tərəfindən həyata keçirilir.

## 3. Qiymətli kağızlar haqqında məlumat

3.1. **İstiqrazların növü**: Faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazlar

3.2. **İstiqrazların valyutası:** ABŞ dolları

3.3. **İstiqrazların təsbit olunan məhdudiyyətlər:** Hər hansı məhdudiyyətlər nəzərdə tutulmamışdır.

3.4. **İstiqrazların təsbit olunmuş hüquqların təsviri:**

3.4.1. Emitentin ləğvi, yaxud Emitentin kreditorları qarşısında olan öhdəliklərinin icrasına dair təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan edildikdə istiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;

3.4.2. İstiqrazların tədavül müddəti bitdikdə istiqrazların nominal dəyərini Emitentdən almaq;

3.4.3. İstiqrazların tədavül müddəti ərzində istiqrazların nominal dəyərindən illik 6 (altı) faiz həcmində faiz almaq;

3.4.4. Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

3.5. **İstiqrazların faiz dərəcəsi. İstiqrazların faizlərinin və dəyərinin ödənilmə tarixi və müddəti. Faiz dərəcəsi müəyyən olunmadığı halda istiqrazın faiz dərəcəsinin nəyin əsasında hesablanması üsulu, həmin əsas barədə məlumat və onun müəyyən olunmasının mənbələri:** İstiqrazlar üzrə illik faiz dərəcəsi 6 (altı) faiz təşkil edir. İstiqrazlar üzrə ödənilməli olan faizlər istiqrazların tədavül müddətində (buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən 5 (beş) il müddətində (ildə günlərin sayı 360 (üç yüz altmış) olaraq götürülməklə) hər 6 (altı) aydan bir (ayda günlərin sayı 30 (otuz) götürülməklə) ödənilir. Ödəniş tarixi qeyri-iş gününə təsadüf etdikdə, ödəniş növbəti ilk iş günü həyata keçirilir. Ödənişlər bank hesabları vasitəsilə nağdsız qaydada yerinə yetirilir. İstiqrazların nominal dəyəri sonuncu kupon ödənişi ilə birlikdə ödəniləcəkdir.

3.6. **Təmin edilmiş istiqrazlar üzrə təminatın təsviri və şərtləri:** İstiqrazlar təmin edilməmiş formada buraxılır.

3.7. **İstiqrazların geri satın alınma şərtləri:** İstiqrazın tədavül müddəti bitməmiş emitentin istiqrazları investorlardan geri almaq öhdəliyi yoxdur,, lakin istiqrazın tədavül müddətinə 2 (iki) il qalmış, emitent istiqrazları nominal dəyər ilə investorlardan geri almaq hüququ qazanır.

3.8. **Gəlirin qısa formada hesablama metodunu göstərməklə gəlir göstəricisi:** İstiqrazlar üzrə faiz (kupon) gəlirliyi illik 6 (altı) faiz təşkil edir. İstiqrazlar üzrə toplanmış faizlərin hesablanması aşağıdakı düstura uyğun olaraq aparılır:

$$TF = \frac{N * D * G}{360}$$

Burada:

$TF$ – Bir istiqraz üzrə toplanmış faizlər (ABŞ dolları ilə ifadə olunur);

$N$ – Bir istiqrazın nominal dəyəri (1 000 (bir min) ABŞ dolları);

$D$ – İstiqrazların illik faiz dərəcəsi (6 (altı) faiz);

$G$ – son faiz (kupon) ödənişindən keçən günlərin sayı.

3.9. **İstiqrazların mülkiyyətçisinin təmsilçisinin adı:** İstiqrazların kütləvi yerləşdirilməsi nəzərdə tutulduğundan istiqrazların mülkiyyətçisi yalnız onların yerləşdirilməsindən sonra müəyyən oluna bilər.

3.10. **Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:** İstiqrazlar təmin edilməmiş formada buraxılır.

3.11. **İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda səhmlərin ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri:** İstiqrazların kütləvi təklif üsulu ilə ilkin yerləşdirilməsi Baza Emissiya Prospektinin müvafiq buraxılışına dair Yekun Şərtlərinin dövlət qeydiyyatına alınmasından sonra "Bakı Fond Birjası" QSC-nin ticarət platforması vasitəsilə həyata keçiriləcəkdir. İstiqrazların "Bakı Fond Birjası" QSC-nin listinqinə daxil edilməsi ilə bağlı müraciət istiqrazın buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir.

## 4. Risk faktorları

4.1. **Təklif olunan qiymətli kağızlarla əlaqəli bazar risklərini qiymətləndirmək üçün zəruri olan risk faktorları:** İstiqrazları əldə edən şəxs aşağıdakı əsas risklərin mövcud olduğunu bilməli və nəzərə almalıdır:

4.1.1. Kredit riski – Emitentin istiqrazlar tədavüldə olan müddətdə onlar üzrə faiz (kupon) ödənişlərinin və müddətin sonunda əsas nominal dəyər üzrə ödənişin həyata keçirə bilməməsi riskidir. Emitentin öz öhdəliklərinin yerinə yetirməməsi ehtimalının artması istiqrazların bazar qiymətinə mənfi təsir edir. Bu halın baş verməsi bir çox amillərdən, o cümlədən Emitentin mövcud və gələcəkdə yaranacaq öhdəliklərinin kapitala nisbətindən, satdığı əsas məhsulların bazar qiymətinin azalması ilə Emitentin ödəniş qabiliyyətinin zəifləməsi və bir sıra digər amillərdən asılıdır.

4.1.2. Faiz dərəcəsi riski – ABŞ dolları üzrə faiz dərəcələrinin artması nəticəsində istiqrazların bazar dəyərinin azalması riskidir. ABŞ dolları üzrə faiz dərəcələrinə təsir edən əsas faktorlara inflyasiyanın və ya inflyasiya gözləntilərinin artması, ABŞ Federal Ehtiyat

Sistemi tərəfindən pul siyasətinin sərtləşdirilməsi üzrə görülən tədbirlər və digər faktorları aid etmək olar.

4.1.3. Valyuta riski – Azərbaycan manatının ABŞ dolları və digər valyutalara qarşı dəyər qazanması riskidir. ABŞ dollarının Azərbaycan manatına və o cümlədən digər valyutalara qarşı bahalaşması, nominalı xarici valyutada (ifadə edilmiş istiqrazların Azərbaycan manatı ilə) ifadə edilmiş bazar qiymətinə mənfi təsir edir.

4.1.4. Likvidlik riski – istiqraz üzrə ticarət həcmlərinin azalması və ya istiqraz üzrə bazarda mövcud olan ən yaxşı alış və ən yaxşı satış qiyməti arasında fərqin (spredin) artması (spredin genişlənməsi) nəticəsində istiqrazın əlverişsiz qiymətə satılması riskidir.

4.2. **İstiqraz emissiyası zamanı emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edə bilən risk faktorları:** Cəmiyyətin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edə bilən risk faktorlarına aşağıdakıları aid etmək:

4.2.1. Daxili faktorlar. Cəmiyyətin dəyişən və sabit xərclərinin artması, debitor borcların ödənilməsi göstəricilərinin pisləşməsi və digər faktorlar Cəmiyyətin ödəmə qabiliyyətinə mənfi təsir edə bilər. Lakin istiqrazların tədavül müddəti ərzində bu riskin reallaşması ehtimalı azdır.

4.2.2. Xarici faktorlar. ASCO-nun fəaliyyət göstərdiyi xidmət sektorlarında xarici şirkətlərin rəqabət mövqeyinin möhkəmlənməsi ASCO-nun gəlirlərinin azalması və nəticə etibarı ilə onun ödəmə qabiliyyətinə mənfi təsir etmə potensialı var.

## 5. Təklif

5.1. **Təklifin səbəbi mənfəətin əldə edilməsi və ya bəzi risklərin sığortalanmasından fərqli olduğu təqdirdə emissiyanın səbəbi:** Təklifin əsas səbəbi Cəmiyyətin əsas fəaliyyətinin genişlənməsi fonunda biznesin dəstəklənməsi üçün əlavə kapitalın cəlb edilməsidir.

5.2. **Təklifin şərtlərinin təsviri:** Emissiya edilən istiqrazlar investorlara abunə yazılışı keçirilməklə təklif ediləcək və Bakı Fond Birjası QSC-nin ticarət platforması vasitəsilə yerləşdiriləcəkdir. İstiqrazlara abunə yazılışı və onların yerləşdirilməsi müddətləri barədə məlumat aşağıdakı kimidir:

5.2.1. Abunə yazılışı. İstiqrazlara abunə yazılışı nəzarət orqanı (Azərbaycan Respublikasının Mərkəzi Bankı) tərəfindən istiqrazların buraxılışının dövlət qeydiyyatına alınması və bu Baza Emissiya Prospektinin müvafiq buraxılışının Yekun Şərtlərinin təsdiq edilməsindən sonra 3 (üç) iş günü ərzində başlanacaq və abunə yazılışı 2 (iki) ay təşkil edəcəkdir. Abunə yazılışının başlanması və başa çatma tarixləri buraxılışın anderrayteri PAŞA Kapital İnvestisiya Şirkəti QSC tərəfindən öz veb saytında və kütləvi informasiya vasitələrində açıqlanacaqdır. Abunə yazılışı dövründə istiqrazları əldə etmək istəyən investor PAŞA Kapital İnvestisiya Şirkəti QSC-yə müraciət edə bilər.

5.2.2. İstiqrazların yerləşdirilməsi. Abunə yazılışı müddəti bitdiyi tarixdən 5 (beş) iş günü ərzində istiqrazların Bakı Fond Birjası QSC-nin ticarət platformasında yerləşdirilməsi başlanacaqdır. Yerləşdirmənin başlanma və başa çatma tarixləri barədə məlumat PAŞA Kapital İnvestisiya Şirkəti QSC tərəfindən öz veb saytında və kütləvi informasiya vasitələrində açıqlanacaqdır.

5.3. **Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat:**

5.3.1. **"Bakı Fond Birjası" QSC.** Emissiya prosesində iştirak edən "Bakı Fond Birjası" QSC yeni emissiya ediləcək istiqrazların listinqə daxil edilməsi, ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarlarda alğı-satqısı üçün mütəşəkkil ticarəti təşkil edir. İstiqrazların emissiyası prosesində "Bakı Fond Birjası" QSC-nin vəzifələri aşağıdakı kimidir:

- İstiqrazların listinqə daxil edilməsi;
- İstiqrazların hərracının təşkil edilməsi;
- İstiqrazların təkrar bazar əməliyyatların aparılması üçün müvafiq ticarət sistemin təmin edilməsi;

5.3.2. **Azərbaycan Respublikasının Mili Depozit Mərkəzi.** Azərbaycan Respublikasının Mili Depozit Mərkəzi qeyri-kommersiya hüquqi şəxs formasında təsis edilmiş Azərbaycan Respublikası ərazisində depozitar sistemini idarə edən mərkəzi depozitardır. İstiqrazların emissiyası prosesində Azərbaycan Respublikasının Mili Depozit Mərkəzi vəzifələri aşağıdakı kimidir:

- İstiqrazların saxlanması və uçotunun aparılması;
- İstiqraz mülkiyyətçilərin reyestrinin aparılması;
- Emitentin ödəniş agenti qismində istiqraz üzrə istiqraz mülkiyyətçilərinə ödənişlərin (faiz ödənişlərinin və tədavül müddətinin sonunda istiqrazın nominal dəyərinin) həyata keçirilməsi xidmətinin göstərilməsi.

5.3.3. **"PAŞA Kapital İnvestisiya Şirkəti" QSC (anderrayter).** Müvafiq lisenziya əsasında investisiya şirkəti fəaliyyətini həyata keçirir. İstiqrazların buraxılışı və yerləşdirilməsi prosesində anderrayterin vəzifələri aşağıdakılardır:

- İstiqrazların abunə yazılışı dövründə toplanılan alış sifarişlərinə qarşı Emitentin satış sifarişini daxil etmək;
- İstiqrazların abunə yazılışı dövründə öz müştərilərindən alış sifarişləri toplamaq;
- Sifarişlərin uzlaşdırılması nəticəsində əmələ gələn alğı-satqı əqdləri barədə hesabat tərtib edərək Emitentə təqdim etmək.

5.4. **İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:**

5.4.1. **Vergilər**. İstiqrazlar üzrə ödənilən faiz (kupon) ödənişindən ödəmə mənbəyində tutulan vergidən fiziki şəxslər 2028-ci ilin fevral ayının 1-dək azaddırlar. Hüquqi şəxslərin istiqrazlar üzrə əldə etdiyi faiz gəlirləri mənfəət vergisinə cəlb olunur. İstiqrazların tədavüldə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat Emitent və ya anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır.

5.4.2. **Xərclər**. İstiqrazın əldə olunması ilə bağlı xidmət haqqı xərcləri investisiya şirkətinin tarif siyasətindən asılıdır. Bu barədə məlumat almaq istəyən investorlar onlara investisiya xidməti göstərən investisiya şirkətinə müraciət etməlidir.

6. İstiqraz buraxılışları haqqında məlumat: İstiqrazların emissiyası iki mərhələdə həyata keçiriləcəkdir. Birinci mərhələdə 100 000 000 (yüz milyon) ABŞ dolları, ikinci mərhələdə isə 50 000 000 (əlli milyon) ABŞ dolları həcmində istiqrazlar emissiya olunacaqdır. Hər bir buraxılış həmin buraxılışa aid müvafiq Yekun Şərtlərlə müşayiət olunacaqdır.

## D. İstiqrazların emitenti və zamin (olduqda) barədə tələb olunan məlumat

1. Emitentin auditorları barədə məlumat

1.1. **Son üç maliyyə ili ərzində emitentin auditorlarının adı, ünvanları və hər hansı təşkilatda üzvlüyü barədə məlumat:**

| | 2019 | 2020 | 2021 |
|---|---|---|---|
| Auditorun adı | Ernst & Yang Holdinqs (SiAyEs) Bi.Vi. | Ernst & Yang Holdinqs (SiAyEs) Bi.Vi. | Ernst & Yang Holdinqs (SiAyEs) Bi.Vi. |
| Auditorun ünvanı | Port Baku Tauers Biznes Mərkəzi, Cənub Qülləsi, 9-cu mərtəbə, Neftçilər prospekti 153, Bakı, AZ1010, Azərbaycan. | Port Baku Tauers Biznes Mərkəzi, Cənub Qülləsi, 9-cu mərtəbə, Neftçilər prospekti 153, Bakı, AZ1010, Azərbaycan. | Port Baku Tauers Biznes Mərkəzi, Cənub Qülləsi, 9-cu mərtəbə, Neftçilər prospekti 153, Bakı, AZ1010, Azərbaycan. |
| Auditorun üzvlüyü barədə məlumat | Azərbaycan Respublikasının Auditorlar Palatasının üzvüdür | Azərbaycan Respublikasının Auditorlar Palatasının üzvüdür | Azərbaycan Respublikasının Auditorlar Palatasının üzvüdür |

1.2. **Son üç maliyyə ili ərzində auditorların əvəzlənməsi və ya dəyişdirilməsi barədə səbəbləri göstərilməklə məlumat:** Son üç maliyyə ili ərzində auditor əvəzlənməmişdir.

2. Seçilmiş maliyyə məlumatı:

2.1. **Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir:**

| min manatla | **2019** | **2020** | **2021** |
|---|---|---|---|
| Gəlirlər | 479 192 | 421 049 | 459 133 |
| AFVƏM* | 170 496 | 139 135 | 150 203 |
| Xalis mənfəət (zərər) | 63 873 | 45 043 | 51 792 |
| Cəmi aktivlər (dövrün sonuna) | 1 212 266 | 1 263 330 | 1 291 208 |
| Cəmi öhdəliklər (dövrün sonuna) | 234 952 | 230 973 | 202 959 |
| Cəmi kapital (dövrün sonuna) | 977 314 | 1 032 357 | 1 088 249 |
| Pul vəsaitləri (dövrün sonuna) | 3 087 | 4 743 | 6 312 |

* Amortizasiya, faizlər və vergidən əvvəlki mənfəət

3. Emitent barədə məlumat

3.1. **Emitentin tam adı, təşkilati-hüquqi forması:** "AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ" QAPALI SƏHMDAR CƏMİYYƏTİ

3.2. **Emitentin dövlət qeydiyyatının rekvizitləri:** VÖEN: 1701579951

3.3. **Emitentin təşkilati-hüquqi forması dəyişdirildikdə, onun bütün əvvəlki adları, təşkilati-hüquqi formaları, o cümlədən dəyişikliklərin dövlət qeydiyyatı tarixi:**

"Azərbaycan Xəzər Dəniz Gəmiçiyi" Qapalı Səhmdar Cəmiyyəti, Azərbaycan Respublikası Prezidentinin 22 oktyabr 2013-cü il tarixli 6 nömrəli və 10 yanvar 2014-cü il tarixli 213 nömrəli Sərəncamlarına əsasən Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Xəzər Dəniz Neft Donanmasının birləşməsi yolu ilə yenidən təşkil olunaraq yaradılmışdır. Yeni yaradılan Cəmiyyətin Nizamnaməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 yanvar 2014-cü il tarixli, 18 nömrəli Qərarı ilə təsdiq edilmiş və Cəmiyyət 31 yanvar 2014-cü il tarixində dövlət qeydiyyatına alınmışdır. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 10 yanvar tarixli 213 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2021-ci il tarixli 2495 nömrəli Sərəncamına uyğun olaraq ASCO-nun yeni Nizamnaməsi Azərbaycan İnvestisiya Holdinqinin Müşahidə Şurasının 2022-ci il 8 iyul tarixli 17 nömrəli qərarı ilə təsdiq edilmiş və 15.11.2022-ci il tarixində dövlət qeydiyyatından keçirilmişdir.

3.4. **Emitentin olduğu yer, poçt ünvanı, elektron poçt ünvanı, emitentin internet səhifəsinin ünvanı və əlaqə telefonları:** Qeydiyyat və faktiki ünvan: Azərbaycan Respublikası, Bakı ş., Mikayıl Useynov küçəsi 2; İnternet səhifəsi: www.asco.az; Əlaqə telefonları: (012) 404 37 00

3.5. **Maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən əsas investisiyaların təsviri (məbləği göstərilməklə):** Son Maliyyə hesabatı 2022-ci ilin aprel ayında dərc edilmişdir. Dərc olunma tarixindən gəmi və avadanlıqların alınması və quraşdırılması layihələrinə 61 milyon manat dəyərində vəsait cəlb olunmuşdur.

3.6. **İdarəetmə orqanlarının emitentin gələcək investisiyaları ilə bağlı öhdəliklər və həmin öhdəlikləri yerinə yetirmək üçün lazım olan maliyyə vəsaiti mənbələri ilə bağlı məlumat:** İdarəetmə orqanlarının emitentin gələcək investisiyaları ilə bağlı öhdəlikləri yoxdur və tələb olunduqda gələcək investisiyalar Emitentin daxili ehtiyatları və cəlb edilmiş kapital hesabına reallaşdırılacaqdır.

3.7. **Emitentin qiymətli kağızlarının ticarətə buraxıldığı tənzimlənən bazarlar barədə məlumat:** Emitentin tənzimələnən bazarda tədavül edilən qiymətli kağızları mövcud deyil.

## 4. Emitentin biznesinin icmalı

4.1. **Emitentin satılmış məhsullarının və ya göstərilmiş xidmətlərinin əsas kateqoriyalarını göstərərək emitentin əsas fəaliyyətlərinin təsviri:**

ASCO-nun əsas fəaliyyət sahələrinə yükdaşımalar, ixtisaslaşmış ofşor xidmətlərin göstərilməsi və gəmi təmiri daxildir.

***Yükdaşımalar:*** ASCO-nun Xəzər dənizində və Xəzərdən kənar hövzələrdə müxtəlif növ yüklərin daşınmasını təmin edən nəqliyyat donanmasına tankerlər, universal quru yük gəmiləri, bərələr, Ro-Ro və Ro-Pax tipli gəmilər daxildir. Nəqliyyat donanmasının tərkibi aşağıdakı kimidir:

| Gəmi tipi | Gəmi sayı, ədəd |
|---|---|
| Tankerlər | 21 |
| Universal quru yük gəmiləri | 14 |
| Bərələr | 13 |
| Ro-Pax tipli gəmilər | 2 |
| Ro-Ro tipli gəmilər | 2 |
| Cəmi | 52 |

ASCO-nun tanker donanması əsasən Qazaxıstan və Türkmənistan limanlarından Azərbaycan limanları istiqamətində xam neft və neft məhsullarının daşınması, eləcə də Qara və Aralıq dənizi hövzələrində maye yüklərin daşınması xidmətlərini təqdim edir. Gəmiçiliyin universal quru yük gəmiləri Xəzər dənizi və Xəzər dənizindən kənar hövzələrdə taxıl, buğda, arpa, qarğıdalı, kəpək, ağac və taxta məmulatları, metal məmulatları, gübrə, tikinti materialları, konteynerlər, eləcə də digər müxtəlif növ quru yüklərin daşınmasını həyata keçirir. ASCO-nun donanmasında olan bərə tipli gəmilər isə (Bərələr, Ro-Ro, Ro-Pax tipli gəmilər) Xəzər dənizində xətti səfərlər həyata keçirir və Azərbaycan, Qazaxıstan və Türkmənistan limanları arasında dəmir yolu vaqonlarının, konteynerlərin, avtotexnikanın, eləcə də sərnişinlərin daşınmasını təmin edir.

***İxtisaslaşmış ofşor xidmətlərin göstərilməsi:*** ASCO-nun strukturuna daxil olan Xəzər Dəniz Neft Donanması Xəzər dənizində, xüsusən də Xəzərin Azərbaycan sektorunda həyata keçirilən bir çox strateji əhəmiyyətli neft-qaz layihələrinə, o cümlədən "Neft Daşları", "Nəriman Nərimanov", "28 may", "Abşeron", "Şah-Dəniz", "Bahar-Qum-Dəniz", "Azəri-Çıraq-Günəşli", "Ümid-Babək" və "Qarabağ" kimi layihələrə xidmət göstərir. İxtisaslaşmış ofşor donanması neft-qaz hasilatı proseslərinin tam təmin edilməsi, o cümlədən dəniz özüllərinin, estakadaların tikintisi, geoloji-kəşfiyyat, neft-qaz kəmərlərinin çəkilişi, onların istismar dövründə təmiri, dənizdəki neft obyektlərinin yanğından mühafizəsi, neftçilərin iş yerlərinə çatdırılması kimi işləri yerinə yetirir və dəniz dibində mineral ehtiyatların kəşfiyyatı və hasilatı ilə əlaqədar kompleks xidmətlər təqdim edir. Eyni zamanda, ixtisaslaşmış ofşor donanmasına ASCO-nun donanmasının daxili tələbatını təmin edən və Gəmiçiliyin gəmilərinin limana giriş-çıxışı zamanı liman-yedəkləmə, gəmilərin yanacaqla təmin olunması, daxili təchizat və təminat kimi xidmətləri göstərən gəmilər də daxildir. ASCO-nun ixtisaslaşmış ofşor donanmasının tərkibi aşağıdakı kimidir:

| Gəminin tipi | Gəmi sayı, ədəd |
|---|---|
| Kran gəmiləri | 21 |
| Sərnişin gəmiləri | 23 |
| Dalğıc gəmiləri | 10 |
| Təchizat-yedək gəmiləri | 21 |
| Təchizat gəmiləri | 4 |
| Xidməti motorlu katerlər | 30 |
| Yedək katerləri | 34 |
| Yedək gəmiləri | 3 |
| Liman yedək gəmiləri | 6 |
| Yanğınsöndürən gəmilər | 5 |
| Mühəndis-geoloji gəmilər | 5 |
| Sualtı borudüzən gəmilər | 2 |
| Maye yükdaşıyan gəmilər | 8 |
| Neft məhsulları ilə çirklənmiş və fekal sular yığan gəmilər | 8 |
| Barjlar | 5 |
| Torpaqqazan gəmilər və karvanı | 5 |
| Gəmi təmiri emalatxanaları | 3 |
| Üzən kopyor | 1 |
| Gəmi-muzey | 1 |
| Cəmi: | 195 |

***Gəmi təmiri:*** Gəmiçiliyin strukturuna daxil olan "Bibiheybət Gəmi Təmiri Zavodu" və "Zığ Gəmi Təmiri və Tikintisi Zavodu" ASCO-ya, eləcə də Xəzər dənizində fəaliyyət göstərən digər gəmiçilik şirkətlərinə məxsus bütün növ gəmilərin təmirini həyata keçirir. Qeyd olunan zavodlarda aşağıdakı xidmətlər təqdim edilir:

- ✓ Əsaslı, tərsanə, cari və səfərlərarası naviqasiya təmirlərinin həyata keçirilməsi;
- ✓ Gəmi sistem və qurğularının, elektrik və radionaviqasiya avadanlıqlarının, mühərriklərin, cihazların quraşdırılması və sazlanması;
- ✓ Dalğıc işləri, su altında mühəndislik və hidro-texniki işlərin aparılması;
- ✓ Gəmilərin doka qaldırılaraq sualtı gövdə, sükan və vintlərinin yoxlanılması, onların təmizlənməsi və rənglənməsi;
- ✓ Hava ilə doldurulan xilasetmə sallarının, hidrostatik ayırıcı qurğuların, fərdi xilasetmə vasitələrinin yoxlanılması və təmiri;
- ✓ ASV tipli izolyasiya edən nəfəs aparatlarına texniki xidmət göstərilməsi və həmin aparatların təmiri;
- ✓ Müxtəlif növ ehtiyat hissələri, xüsusi boyalar və texniki vasitələrin hazırlanması.

4.2. **Təqdim olunmuş yeni məhsul və ya xidmətlər barədə məlumat, onların inkişaf statusu:** KPMG şirkəti ilə birgə hazırlanmış ASCO-nun 2022-2030-cu illər üzrə Strategiyası çərçivəsində Xəzərdən kənar hövzələrdə fəaliyyətin genişləndirilməsi planı mövcuddur. Bu plana əsasən daha iri tutumlu tanker gəmiləri ilə yükdaşıma bazarına daxil olmaq nəzərdə tutulmuşdur. Hazırda, beynəlxalq tanınmış brokerlərlə birgə satış üçün açıq olan müvafiq gəmilər araşdırılır və iri tutumlu gəmilər üzrə potensial müştərilərlə danışıqlar aparılır.

4.3. **Emitentin rəqabət apardığı əsas bazarların təsviri**: ASCO Xəzər dənizində və Xəzərdən kənarda - əsasən Qara və Aralıq dənizi hövzələrində fəaliyyət göstərir. Xəzər dənizində neft və neft məhsulların daşınması və quru yük daşımaları bazarında ASCO ilə yanaşı Qazaxıstan, Türkmənistan, İran və Rusiyaya məxsus dövlət və özəl gəmiçilik şirkətlərinin gəmiləri fəaliyyət göstərir. ASCO Xəzər dənizində yeganə bərə operatorudur və Xəzər üzərindən dəmir yolları vaqonlarının daşınması ASCO-nun bərə gəmiləri ilə həyata keçirilir. Eyni zamanda, Xəzər üzərindən avtotexnika (TİR) və sərnişin daşımaları ASCO-nun bərə tipli gəmiləri ilə yanaşı, Türkmənistan gəmiçiliyinə məxsus Ro-Pax tipli gəmilərlə həyata keçirilir. Qara və Aralıq dənizi hövzələrində çoxlu sayda, müxtəlif ölçülü gəmiçilik şirkəti sıx rəqabət şəraitində fəaliyyət göstərir.

Xəzər dənizində ixtisaslaşmış ofşor xidmətlər bazarında isə yerli və xarici gəmiçilik şirkətləri müxtəlif xidmətlər təqdim edir.

4.4. **Emitentin rəqabət mövqeyinə dair bəyanatı olduğu halda onun əsaslandırması**: Emitentin rəqabət mövqeyinə dair bəyanatı mövcud deyil.

## 5. Digər təşkilatlarda iştirak

5.1. **Emitentin digər hüquqi şəxslərdə qısa təsviri**: Emitentin strukturuna daxil olan törəmə müəssisləri bu Baza Emissiya Prospektinin C bölməsinin 2.4.-cü bəndində göstərilmişdir. Cəmiyyətin digər hüquqi şəxslərin nizamnamə kapitalında iştirakı yoxdur.

5.2. **Emitent daxil olduğu qruplardan asılılığı və bu asılılığın səbəbi:** ASCO Azərbaycan İnvestisiya Holdinqinin (AİH) portfel şirkətidir. Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2021-ci il tarixli sərəncamı ilə ASCO-nun Müşahidə Şurası təsis edilmişdir və ASCO-nun Ümumi Yığıncağının bəzi səlahiyyətlərinin həyata keçirilməsi Azərbaycan

Respublikası Prezidenti ilə razılaşdırmaqla Azərbaycan İnvestisiya Holdinqinə həvalə edilmişdir.

6. Tendensiyalar barədə məlumat:

6.1. **Audit edilmiş maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən emitentin emissiya prospektində mənfi dəyişiklik olmadığı barədə məlumat:** Bu cür dəyişiklik olmamışdır.

6.2. **Emitentin fəaliyyətinə cari maliyyə ili dövründə təsir etmə ehtimalı olan məlum tendensiyalar, qeyri-müəyyənliklər, tələblər, öhdəliklər və ya hadisələr barədə məlumat**:

Hazırda, regionda mövcud geo-siyasi vəziyyətlə əlaqədar, bir sıra yüklərin Xəzər üzərindən keçən marşrutlara yönəldilməsi tendensiyası mövcuddur. Eyni zamanda, qlobal iqtisadi vəziyyət və qeydə alınan yüksək inflyasiya dərəcəsi ilə əlaqədar, bəzi daimi və dəyişən xərclərin artması müşahidə olunmuşdur.

7. Gəlir proqnozu: Gəlir proqrnozu mövcud deyil

8. Emitentin idarəetmə və nəzarət orqanları:

8.1. **Emitentin idarəetmə və nəzarət orqanlarının hər bir üzvü barədə aşağıdakı məlumatlar**:

| S.A.A. | Funksiyaları: | Xidməti vəzifələri ilə şəxsi maraqları arasında ziddiyyət yarana biləcəyi hallarda maraqların toqquşması barədə hesabat: |
|---|---|---|
| Vəliyev Rauf Göyüş oğlu – Cəmiyyətin İdarə Heyətinin sədri | Cəmiyyətin fəaliyyətinə cari rəhbərliyi həyata keçirir;<br><br>Cəmiyyətin üzərinə düşən vəzifələrin yerinə yetirilməsi, onun hüquq və öhdəliklərinin həyata keçirilməsi üçün zəruri tədbirlər görür;<br>Cəmiyyət adından etibarnaməsiz fəaliyyət göstərir, habelə Cəmiyyəti bütün dövlət orqanlarında, idarə, müəssisə və təşkilatlarda (o cümlədən, beynəlxalq təşkilatlarda) təmsil edir;<br>Cəmiyyətin səmərəli fəaliyyət göstərməsini təmin edir; | İdarə Heyətinin bütün üzvləri Azərbaycan Respublikası Mülki Məcəllənin tələblərinə, habelə ASCO-nun Biznes Etikası Məcəlləsinə uyğun olaraq fəaliyyət göstərir. Maraqlar arasında ziddiyyət yarandıqda hüquqi şəxsin maraqları şəxsi maraqlardan üstün tutulur. Maraqların toqquşması barədə məlumat Müşahidə Şurasına verilir. |

| | | |
|---|---|---|
| | Cəmiyyətin Nizamnaməsi ilə müəyyən edilmiş digər səlahiyyətləri icra edir | Eyni zamanda, aidiyyəti şəxs ilə müqavilənin imzalanması yalnız Müşahidə Şurasının razılığı ilə mümkündür |
| Cabbarov Mübariz Mustafa oğlu – Cəmiyyətin İdarə Heyəti sədrinin birinci müavini | Gəmilərin səmərəli və effektiv istismarı və kommersiya fəaliyyəti sahələrinin işini təşkil edir | |
| Fərəcli Cəlal Həsənağa oğlu – Cəmiyyətin İdarə Heyəti sədrinin müavini | ASCO-nun maliyyə, büdcə və iqtisadiyyat sahələrinin işini təşkil edir | |
| Əhmədzadə Nəzrəddin Murad oğlu – Cəmiyyətin İdarə Heyəti sədrinin müavini | ASCO-nun təhlükəsizlik və nəqliyyat sahələrinin işini təşkil edir | |
| Mahmudlu Cəbrayıl İdris oğlu – Cəmiyyətin İdarə Heyəti sədrinin müavini | ASCO-nun satınalmaları, tikinti və sosial sahələrinin işini təşkil edir | |
| Mirzəyev Tariyel Taleh oğlu – Cəmiyyətin İdarə Heyəti sədrinin müavini | ASCO-nun strategiya, investisiyalar, innovasiya və informasiya texnologiyaları sahələrinin işini təşkil edir | |
| Nağıyev Zaur Rəsul oğlu – Cəmiyyətin İdarə Heyəti sədrinin müavini | ASCO-nun hüquq, uyğunluq, insan resurslarının idarəedilməsi və ictimaiyyətlə əlaqələr sahələrinin işini təşkil edir | |

## 9. İdarə heyətinin işgüzar praktikası:

9.1. **Audit və mükafatlandırma (olduqda) komitələrinin üzvlərinin adları və komitələrin əsasnamələri ilə onlara verilmiş səlahiyyət əsasında gördükləri işlərin icmalı**: ASCO-nun Müşahidə Şurasının yanında Audit komitəsi və Təyinat və Mükafatlandırma komitəsi fəaliyyət göstərir.

Audit komitəsinin tərkibi aşağıdakı kimidir.

Komitə sədri:

- Cahangir Rzayev - Azərbaycan İnvestisiya Holdinqinin audit departamentinin rəisi, Audit komitəsinin işini təşkil edir, audit komitəsinin iclaslarını çağırır və iclaslara sədrlik edir, audit komitəsi iclaslarının keçirilmə formasını müəyyən edir.

Komitə üzvləri:

- Mətin Eynullayev - Azərbaycan İnvestisiya Holdinqinin İdarə Heyətinin sədri, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəisi
- Xəyyam Məmmədov - Azərbaycan İnvestisiya Holdinqinin Baş icraçı direktorunun müavini

Audit komitəsinin gördüyü işlərin icmalı:

- Müşahidə Şurasının səlahiyyətləri daxilində Cəmiyyətin satınalmaları üzrə yoxlamanın aparılmasına dair planı təsdiq üçün Müşahidə Şurasına təqdim etmək
- Dayanıqlı inkişaf üzrə hesabatı təsdiq üçün Müşahidə Şurasına təqdim etmək
- Maliyyə dayanıqlılığının artırılmasına dair tədbirlər planını təsdiq üçün Müşahidə Şurasına təqdim etmək
- Maliyyə hesabatlılığının formaları, müddətləri, standartları və konsolidasiya səviyyəsinin (ayrı və ya konsolidə edilmiş) təsdiqi üçün Müşahidə Şurasına təkliflər vermək;

Təyinat və Mükafatlandırma komitəsinin tərkibi aşağıdakı kimidir.
Komitə sədri:

- Mətin Eynullayev - Azərbaycan İnvestisiya Holdinqinin İdarə Heyətinin sədri, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəisi, təyinat və mükafatlandırma komitəsinin işini təşkil edir, təyinat və mükafatlandırma komitəsinin iclaslarını çağırır və iclaslara sədrlik edir, təyinat və mükafatlandırma komitəsi iclaslarının keçirilmə formasını müəyyən edir

Komitə üzvləri:

- Rəhman Hümmətov - Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini
- Vüqar Məcidli - Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Aparatının İqtisadi sahələrin maliyyəsi şöbəsinin müdiri
- Rauf Vəliyev - "Azərbaycan Xəzər Dəniz Gəmiliyi" QSC-nin İdarə Heyətinin sədri

Təyinat və Mükafatlandırma komitəsinin gördüyü işlərin icmalı:

- İdarə Heyətinin ƏSG-lərinin siyahısı və hədəf dəyərlərinin, ƏSG-lərin icrasına dair hesabatın və nəticələrə əsasən təshih tədbirlərinin təsdiq edilməsi üçün Müşahidə Şurasına təqdim edilməsi
- İdarə Heyətinin mükafatlandırma məbləğlərinin həcminin təsdiq edilməsi üçün Müşahidə Şurasına təqdim edilməsi
- İdarə Heyətinin vəzifəyə təyin və vəzifədən azad edilməsinə dair tövsiyələrin hazırlanması
- Daxili audit xidmətinin rəhbəri və üzvləri də daxil olmaqla xidmətin fəaliyyətinin qiymətləndirilməsinə dair tövsiyələrin hazırlanması

9.2. **Emitentin, qeydiyyatda olduğu ölkədə mövcud olan korporativ idarəetmə standartlarına uyğun olub-olmadığı barədə hesabat. Uyğun olmadığı halda bu barədə izahat**: Emitent Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə hüquqi şəxslər üçün müəyyən edilmiş korporativ idarəetmə standartlarına uyğun olaraq idarə edilir. Bundan əlavə, Gəmiçilikdə beynəlxalq korporativ idarəetmə sistemi tətbiq edilmişdir. 2018-ci ildə beynəlxalq audit şirkəti Deloitte tərəfindən Gəmiçiliyin korporativ idarəetmə sisteminin "GIST" (Governance Indexing and Screening Tool) metodologiyasına, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) səhmləri dövlətə məxsus şirkətlər üçün korporativ idarəetmə prinsiplərinə və Beynəlxalq Korporativ İdarəetmə Şəbəkəsinin (International Corporate Governance Network - ICGN) müvafiq təlimatlarına uyğun qiymətləndirilməsi aparılmışdır. Qiymətləndirmə nəticəsində ASCO-ya təqdim olunmuş

korporativ idarəetmə reytinqi MDB üzrə səhmləri birjalarda satılan şirkətlərin orta reytinqindən və MDB-də səhmləri dövlətə məxsus şirkətlərin bir çoxunun reytinqindən yüksək qiymətləndirilmişdir.

## 10. Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan şəxslər.

10.1. **Emitentin nizamnamə kapitalında on faizdən artıq iştirak payına sahib olan şəxslərin adları, vətəndaşlığı və onlara məxsus səhmlərin sayı və nizamnamə kapitalında olan faiz nisbəti**:
ASCO-nun 100% səhmləri Azərbaycan Respublikasına məxsusdur.

10.2. **Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətin xüsusiyyəti və bu nəzarətin sui-istifadə edilmədiyinə əmin olmaq üçün lazımi tədbirlərin təsviri**:
Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə ASCO-nun Ümumi Yığıncağının səlahiyyətlərinin həyata keçirilməsi Azərbaycan Respublikası Prezidentinə və Azərbaycan İnvestisiya Holdinqinə həvalə edilmişdir. Həmçinin, sözügedən sərəncamla ASCO-nun fəaliyyətinə ümumi nəzarəti həyata keçirən orqan - Müşahidə Şurası təsis edilmişdir. Eyni zamanda, ASCO Azərbaycan İnvestisiya Holdinqinin (AİH) portfel şirkətidir və Müşahidə Şurasının və Müşahidə Şurası yanında komitələrin müvafiq qərarlarının icrası, sənədlərin razılaşdırılması və hesabatların təqdim edilməsi istiqamətində AİH ilə Gəmiçilik arasında sıx əlaqə mövcuddur.

10.3. **Mühüm iştirak payına sahib olan şəxslərin dəyişməsinə gətirə bilən və emitentə məlum olan əməliyyatlar barədə məlumat**: Mövcud deyil.

## 11. Emitentin maliyyə məlumatları

11.1. **Emitentin başa çatmış son iki maliyyə ili üzrə audit edilmiş maliyyə hesabatları**: Əlavə edilmişdir.

11.2. **Emitent bir ildən az müddətdə fəaliyyət göstərdiyi təqdirdə bu dövrü əhatə edən audit edilmiş maliyyə hesabatları:** Emitent bir ildən çox müddətdə fəaliyyət göstərir.

11.3. **Maliyyə hesabatları MHBS-ə uyğun hazırlanmadığı təqdirdə, belə maliyyə hesabatları milli uçot standartlarına uyğun olaraq hazırlanmalıdır və ən azı aşağıdakıları özündə əks etdirməlidir:** Maliyyə hesabatları MHBS-ə uyğun olaraq hazırlanmışdır.

11.4. **Emitentin konsolidasiya olunmuş maliyyə hesabatı (olduqda)**: Əlavə edilmişdir.

11.5. **Emitent son audit edilmiş maliyyə hesabatlarının tarixindən etibarən rüblük və ya yarımillik maliyyə hesabatlarını dərc etdiyi təqdirdə onlar emissiya prospektinə daxil edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatları audit edildiyi təqdirdə hesabata audit rəyi əlavə edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatı audit edilmədikdə bu qeyd edilməlidir**: Emitent son audit edilmiş maliyyə hesabatlarının tarixindən etibarən rüblük və ya yarımillik maliyyə hesabatları dərc etməmişdir.

11.6. **Emissiya propekti audit olunmuş son maliyyə hesabatından doqquz ay sonra hazırlanarsa bu zaman ən azı yarım illik aralıq audit edilmiş və ya audit edilməmiş maliyyə hesabatı prospektə əlavə edilməlidir. Aralıq maliyyə hesabatı əvvəlki maliyyə ilində eyni dövr üzrə müqayisəli hesabatla birgə tərtib edilməlidir**: Əlavə edilmişdir.

11.7. **Emitentin maliyyə vəziyyətinə və ya gəlirliliyinə təsir edən son bir il ərzində hüquqi proseslər barədə məlumat (həllini gözləyən proseslər də daxil olmaqla)**: Emitentin maliyyə vəziyyətinə və ya gəlirliliyinə təsir göstərə bilən hüquqi proses mövcud deyil.

11.8. **Maliyyə hesabatlarının dərc edilməsindən sonra emitentin maliyyə vəziyyətində baş verən dəyişikliklər barədə məlumat**: Geo-siyasi vəziyyətlə əlaqədar, bir sıra yüklərin Xəzər üzərindən keçən marşrutlara yönəldilməsi ASCO-nun gəlirlərini keçən illə müqayisədə əhəmiyyətli dərəcədə artırmışdır. Gəlirlərdə olan müsbət artım öz müsbət təsirini eyni zamanda şirkətin ticarət borclarının və digər öhdəliklərinin azalmasında göstərmişdir. 2022-ci ilin birinci yarımilliyi ilə 2021-ci ilin eyni dövrü ilə müqayisədə Emitentin əsas maliyyə göstəricilərində aşağıdakı dəyişikliklər qeydə alınmışdır:

**min manatla**

| | **2021-ci ilin birinci yarımilliyi** | **2022-ci ilin birinci yarımilliyi** |
|---|---|---|
| Gəlirlər | 225 942 | 287 873 |
| AFVƏM* | 64 530 | 102 020 |
| Xalis mənfəət (zərər) | 18 771 | 48 742 |
| Cəmi aktivlər (dövrün sonuna) | 1 270 904 | 1 308 376 |
| Cəmi öhdəliklər (dövrün sonuna) | 197 540 | 173 385 |
| Cəmi kapital (dövrün sonuna) | 1 073 364 | 1 134 991 |
| Pul vəsaitləri (dövrün sonuna) | 2 903 | 8 725 |

* Amortizasiya, faizlər və vergidən əvvəlki mənfəət

## 12. Emitent haqqında əlavə məlumatlar

12.1. **Emitentin nizamnamə kapitalı və onun tərkibi haqqında, o cümlədən nizamnamə kapitalının miqdarı, səhmlərin (payların) miqdarı, onların nominal dəyəri və növləri, habelə səhmlərin ayrı-ayrı növlərinin imtiyazları haqqında məlumat, adi və imtiyazlı səhmlərlə təsbit olunmuş hüquqların məzmunu**:

- Nizamnamə kapitalının məbləği: 440 050 998 (dörd yüz qırx milyon əlli min doqquz yüz doğsan səkkiz) manat
- Nizamnamə kapitalını təşkil edən adi, adlı səhmlərin (payların) sayı: 440 050 998 (dörd yüz qırx milyon əlli min doqquz yüz doxsan səkkiz) ədəd
- Nizamnamə kapitalını təşkil edən adi, adlı səhmlərin (payların) hər birisinin nominal dəyəri: 1 (bir) manat
- Nizamnamə kapitalını təşkil edən adi, adlı səhmlərlə (paylarla) təsbit olunmuş hüquqların məzmunu: Cəmiyyətin pay sahiblərinin hüquqları Azərbaycan Respublikasının Mülki Məcəlləsinin müvafiq maddələri ilə və Azərbaycan Respublikası Prezidentinin 10 yanvar 2014-cü il tarixli 213 nömrəli Sərəncamına əsasən müəyyən edilmişdir.
- Nizamnamə kapitalında imtiyazlı səhmlər barədə məlumat: Mövcud deyil.

12.2. **Emitentin nizamnaməsi barədə aşağıdakı məlumat**:

- **Fəaliyyət və məqsədlərin təsviri**: Kommersiya hüquqi şəxs olan Cəmiyyətin əsas məqsədləri dəniz limanları arasında yerli, beynəlxalq yük və sərnişin daşımalarının həyata keçirilməsi, daşımaların səmərəliliyinin artırılması və Azərbaycan Respublikasının tranzit potensialının gücləndirilməsi istiqamətlərində fəaliyyət

göstərən, habelə ticarət gəmiçiliyinin fəaliyyət növləri üzrə xidmətlərin, o cümlədən dənizdə həyata keçirilən neft-qaz layihələrində və digər layihələrdə, eləcə də yerli, xarici fiziki və hüquqi şəxslərə müasir gəmiçiliyin fəaliyyət növləri (bundan sonra müvafiq sahə) üzrə xidmətlərin göstərilməsindən ibarətdir. ASCO-nun fəaliyyət istiqamətləri aşağıdakılardır:

- Müvafiq sahədə dövlət siyasətinin formalaşmasında və həyata keçirilməsində iştirak etmək;
- Müvafiq sahədə aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, təkliflərin işlənib hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;
- Azərbaycan Respublikasında dəniz gəmiçiliyinin dayanıqlı inkişafını təmin etmək məqsədlə ticarət gəmiçiliyinin fəaliyyət növlərini və gəmiçilik xidmətlərini genişləndirmək və şaxələndirmək;
- Cəmiyyətə məxsus donanmaları inkişaf etdirmək və onların rəqabət qabiliyyətini artırmaq;
- Gəmi tikintisi və gəmi təmiri xidmətləri göstərmək;
- Təhlükəli yüklərin qanunla müəyyən olunmuş qaydada daşınmasının, nəqlinin və saxlanılmasının təşkili ilə bağlı xidmətlər göstərmək və belə yüklərin hərəkət təhlükəsizliyini təmin etmək;
- Müvafiq sahədə elmi tədqiqat, layihələndirmə və tikinti-quraşdırma, o cümlədən I və II məsuliyyət səviyyəli bina və qurğuların, gəmilərin və bərə keçidlərinin mühəndis-axtarış, layihələndirmə, tikinti-quraşdırma işlərini həyata keçirmək;
- Müvafiq sahədə konstruktor-texnoloji sənədləri hazırlanmaq, texnoloji avadanlıq, mal-material və ehtiyat hissələrini çatdırmaq və onların servisini həyata keçirmək;
- Müvafiq sahədə məlumatlandırma və təşviqat işlərini təşkil etmək;
- Azərbaycan İnvestisiya Holdinqinin Müşahidə Şurasının 2022-ci il 8 iyul tarixli 17 nömrəli qərarı ilə təsdiq edilmiş Nizamnaməsi ilə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək.

- **İdarəetmə və nəzarət orqanlarının səlahiyyətləri barədə müddəaların icmalı**: Cəmiyyətin ali idarəetmə orqanı onun səhmdarlarının ümumi yığıncağıdır. Cəmiyyətin ümumi yığıncağının müstəsna səlahiyyətlərinə aid edilmiş məsələlər "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 10 yanvar tarixli 213 nömrəli Sərəncamına uyğun olaraq həll edilir.
  Cəmiyyətin ümumi yığıncağının səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilmişdir:
  Azərbaycan Respublikasının Prezidentinə:
  - Cəmiyyətin yenidən təşkili və ləğvi;
  - Cəmiyyətin Müşahidə Şurasının və icra orqanının üzvlərinin, o cümlədən onların rəhbərlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

  Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, Azərbaycan İnvestisiya Holdinqinə:
  - Cəmiyyətin nizamnaməsinin və strukturunun təsdiq edilməsi, nizamnamə kapitalının miqdarının müəyyən edilməsi;
  - Cəmiyyətin illik hesabatlarının, maliyyə hesabatlarının təsdiq edilməsi, mənfəətinin və zərərinin bölüşdürülməsi;
  - Cəmiyyətin dividend siyasətinin təsdiq edilməsi;

- Cəmiyyətin qiymətli kağızlarının buraxılması barədə qərar qəbul edilməsi;
- Cəmiyyətin xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri Cəmiyyətin aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul edilməsi.

Cəmiyyətin fəaliyyətinə ümumi nəzarəti və rəhbərliyi həyata keçirmək məqsədilə sədr də daxil olmaqla 5 (beş) üzvdən ibarət Müşahidə Şurası yaradılmışdır. Cəmiyyətin Müşahidə Şurasının səlahiyyətləri (vəzifələri) aşağıdakılardır:

- Cəmiyyətin uzunmüddətli inkişaf strategiyasını təsdiq etmək;
- Cəmiyyətin İdarə Heyətinin fəaliyyətinə nəzarət etmək, Azərbaycan İnvestisiya Holdinqinin (AİH) təsdiq etdiyi qiymətləndirmə sisteminə uyğun olaraq İdarə Heyəti üzvlərinin fəaliyyətini qiymətləndirmək;
- Cəmiyyətin İdarə Heyəti üzvlərinin, habelə Azərbaycan Respublikasının qanunları ilə yol verilməyən hallar istisna olmaqla, Müşahidə Şurasının üzvlərinin mükafatlandırılması qaydasını müəyyən etmək;
- Cəmiyyətin aparatının korporativ strukturunun və ştat cədvəlinin təsdiq edilməsinə razılıq vermək, törəmə və asılı təsərrüfat cəmiyyətlərini yaratmaq, onların nizamnamələrini təsdiq etmək, idarəetmə orqanlarının üzvlərini və rəhbərlərini vəzifəyə təyin və vəzifədən azad etmək;
- Cəmiyyətin Audit Komitəsini və digər komitələrini yaratmaq, onların əsasnamələrini təsdiq etmək, rəhbərlərini və üzvlərini vəzifəyə təyin və vəzifədən azad etmək;
- Cəmiyyətin risklərinin idarə olunması, daxili audit və uyğunluğa nəzarət xidmətlərini yaratmaq və onların əsasnamələrini təsdiq etmək;
- Cəmiyyətin mərkəzləşdirilmiş fondlarını yaratmaq və onlardan istifadə qaydalarını müəyyən etmək;
- Cəmiyyətin fəaliyyətinin ayrı-ayrı sahələri üzrə siyasəti və səlahiyyət hədlərinə daxil etdiyi daxili qaydaları (o cümlədən maraqlar münaqişəsinin istisna olunması qaydasını) təsdiq etmək;
- Cəmiyyətin illik səmərəlilik göstəriciləri üzrə hədəfləri, habelə likvidliyin hədəf göstəricilərini, borcalmanın yuxarı həddini, maliyyə dayanıqlılığının artırılmasına dair hədəf göstəricilərini, eləcə də ortamüddətli biznes planının əsas göstəricilərini təsdiq etmək;
- Borcun cəlb edilməsi üzrə səlahiyyət hədlərinin təsdiqi və öz səlahiyyətləri çərçivəsində borcun cəlb olunması barədə qərar qəbul etmək, kredit təşkilatlarından maliyyə vəsaitlərinin cəlb olunması və banklara maliyyə vəsaitlərinin qoyuluşu üzrə hədləri müəyyənləşdirmək;
- Ümumi Yığıncağın səlahiyyətlərinə aid edilmiş hallar istisna olmaqla, Cəmiyyətin investisiya layihələrini və onların icrasına dair hesabatları, eləcə də Cəmiyyətin inkişaf strategiyasının və biznes planının əsas göstəricilərinin icrasına dair hesabatı təsdiq etmək;
- Cəmiyyətin xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri Cəmiyyətin aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanılması ilə bağlı Ümumi Yığıncağa təkliflər vermək;
- Aidiyyəti şəxslərlə bağlanması nəzərdə tutulan və dəyəri Cəmiyyətin aktivlərinin 5 (beş) faizinədək hissəsini təşkil edən əqdlərin təsdiqi ilə bağlı qaydaları (hədləri) müəyyən etmək və öz səlahiyyət hədlərinə daxil etdiyi aidiyyəti şəxslərlə əqdləri təsdiq etmək;
- Cəmiyyətin büdcəsini, o cümlədən xərclər və gəlirlər smetasını təsdiq etmək və onun icrasına nəzarət etmək;
- Cəmiyyətin fəaliyyətinin müntəzəm monitorinqinə və qiymətləndirilməsinə imkan verən hesabatlılıq sistemini yaratmaq, normativ hüquqi aktlarda başqa

qayda nəzərdə tutulmadığı halda, Cəmiyyətin maliyyə və digər hesabatlarının formasını təsdiq etmək və təqdim olunması müddətlərini müəyyənləşdirmək;

- Cəmiyyətin fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı monitorinq aparmaq və onun nəticələrinə əsasən tədbirlər görmək;
- Cəmiyyətin müstəqil auditorunu müəyyən etmək, bununla bağlı müqavilənin bağlanılmasına, onun dəyişdirilməsinə və ona xitam verilməsinə razılıq vermək;
- Cəmiyyətin Audit Komitəsinin, daxili audit xidmətinin və müstəqil auditorun yoxlamalarının nəticələrinə dair tədbirlər görmək;
- Cəmiyyətdə mənfəətin və zərərin bölgüsünü, illik hesabatları və maliyyə hesabatlarını təsdiq edilməsi üçün Ümumi Yığıncağa təqdim etmək;
- mövcud normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla, Cəmiyyətin aktivlərinin idarəetməyə verilməsi və özəlləşdirilməsi ilə bağlı əqdlərin bağlanılmasına razılıq vermək;
- Cəmiyyətin filial və nümayəndəliklərini yaratmaq, onların əsasnamələrini təsdiq etmək, rəhbərlərini vəzifəyə təyin və vəzifədən azad etmək;
- Cəmiyyətin dayanıqlı inkişafa dair hesabatını təsdiq etmək;
- Müşahidə Şurasının iclaslarının keçirilməsi qaydasını təsdiq etmək;
- AİH-in Müşahidə Şurasının 2022-ci il 8 iyul tarixli 17 nömrəli qərarı ilə təsdiq edilmiş Nizamnaməsi ilə, Azərbaycan Respublikasının normativ hüquqi aktları və Müşahidə Şurası haqqında AİH-in təsdiq etdiyi əsasnamə ilə Müşahidə Şurasının səlahiyyətlərinə aid edilmiş digər məsələləri həll etmək.

AİH-in Müşahidə Şurasının 2022-ci il 8 iyul tarixli 17 nömrəli qərarı ilə təsdiq edilmiş Nizamnaməyə əsasən Cəmiyyətin fəaliyyətinə cari rəhbərliyi onun kollegial icra orqanı olan İdarə Heyəti həyata keçirir. Cəmiyyətin İdarə Heyəti Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi 7 (yeddi) üzvdən – Cəmiyyətin sədrindən, Cəmiyyətin sədrinin birinci müavinindən və Cəmiyyətin sədrinin 5 (beş) müavinindən ibarətdir. İdarə Heyətinin fəaliyyətinə Cəmiyyətin sədri rəhbərlik edir. İdarə Heyətinin üzvlərinin səlahiyyət müddəti 3 (üç) il təşkil edir və onlar növbəti müddətlərə yenidən təyin edilə bilərlər. İdarə Heyətinin səlahiyyətləri (vəzifələri) aşağıdakılardır:

- Cəmiyyətin fəaliyyətini təşkil etmək;
- Cəmiyyətin Nizamnaməsi ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi məqsədilə Müşahidə Şurasına təkliflər vermək və sənədlər (o cümlədən Cəmiyyətin illik və rüblük hesabatlarını, habelə strateji planlarının icrası barədə hesabatları) təqdim etmək;
- Cəmiyyətin Nizamnaməsinə, habelə nizamnamə kapitalına dəyişikliklər edilməsi barədə Ümumi Yığıncağa təkliflər verilməsi üçün Müşahidə Şurasına müraciət etmək;
- Cəmiyyətin inkişaf strategiyasının formalaşdırılması məqsədilə Müşahidə Şurasına təkliflər vermək;
- Ümumi Yığıncağın və Müşahidə Şurasının qərarlarının icrasını təmin etmək;
- Cəmiyyətin xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri Cəmiyyətin aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanılması haqqında Ümumi Yığıncağa təkliflər verilməsi üçün Müşahidə Şurasına müraciət etmək, həmçinin Müşahidə Şurası tərəfindən müəyyən edilmiş səlahiyyət hədləri daxilində aidiyyəti şəxslə əqdi təsdiq etmək;
- Cəmiyyətin strukturuna daxil olan qurumların, törəmə və asılı təsərrüfat cəmiyyətlərin fəaliyyətinə dair illik iş planlarını və onların icra vəziyyətinə dair hesabatları təsdiq etmək;

- Cəmiyyətin strukturuna daxil olan qurumların istehsal və təsərrüfat funksiyalarının tam və ya qismən mərkəzləşdirilməsinə dair qərar qəbul etmək;
- Cəmiyyətin strukturuna daxil olan qurumlar, törəmə və asılı təsərrüfat cəmiyyətləri arasında mübahisələrin həlli istiqamətində tədbirlər görmək;
- Cəmiyyətin xarici dövlətlərin aidiyyəti qurumları ilə birgə işinin məqsədəuyğunluğu barədə qərar qəbul etmək;
- Cəmiyyətin mərkəzləşdirilmiş fondlarının yaradılmasına və istifadəsinə dair Müşahidə Şurasına təkliflər vermək;
- İdarə Heyəti üzvlərinin müraciətlərinə baxmaq və qərar qəbul etmək;
- Cəmiyyətin Nizamnaməsi ilə Ümumi Yığıncağın və Müşahidə Şurasının səlahiyyətlərinə aid edilməyən digər məsələləri həll etmək.

12.3. **Emissiya olunan qiymətli kağızlar baxımından qiymətli kağızlar barədə emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edən emitentin əsas fəaliyyəti ilə bağlı olmayan müqavilələr barədə məlumat**: Qiymətli kağızlar barədə emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edən emitentin əsas fəaliyyəti ilə bağlı olmayan müqavilələr mövcud deyil.

## E. İstiqrazlar barədə tələb olunan məlumat

1. Əsas məlumat

1.1. Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat:

- **"Bakı Fond Birjası" QSC.** Emissiya prosesində iştirak edən "Bakı Fond Birjası" QSC yeni emissiya ediləcək istiqrazların listinqə daxil edilməsi, ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarlarda alğı-satqısı üçün mütəşəkkil ticarəti təşkil edir. İstiqrazların emissiyası prosesində "Bakı Fond Birjası" QSC-nin vəzifələri aşağıdakı kimidir:
  - İstiqrazların listinqə daxil edilməsi;
  - İstiqrazların hərracının təşkil edilməsi;
  - İstiqrazların təkrar bazar əməliyyatların aparılması üçün müvafiq ticarət sistemin təmin edilməsi;
- **Azərbaycan Respublikasının Mili Depozit Mərkəzi.** Azərbaycan Respublikasının Mili Depozit Mərkəzi qeyri-kommersiya hüquqi şəxs formasında təsis edilmiş Azərbaycan Respublikası ərazisində depozitar sistemini idarə edən mərkəzi depozitardır. İstiqrazların emissiyası prosesində Azərbaycan Respublikasının Mili Depozit Mərkəzi vəzifələri aşağıdakı kimidir:
  - İstiqrazların saxlanması və uçotunun aparılması;
  - İstiqraz mülkiyyətçilərin reyestrinin aparılması;
  - Emitentin ödəniş agenti qismində istiqraz üzrə istiqraz mülkiyyətçilərinə ödənişlərin (faiz ödənişlərinin və tədavül müddətinin sonunda istiqrazın nominal dəyərinin) həyata keçirilməsi xidmətinin göstərilməsi.
- **"PAŞA Kapital İnvestisiya Şirkəti" QSC (anderrayter).** Müvafiq lisenziya əsasında investisiya şirkəti fəaliyyətini həyata keçirir. İstiqrazların buraxılışı və yerləşdirilməsi prosesində anderrayterin vəzifələri aşağıdakılardır:
  - İstiqrazların abunə yazılışı dövründə toplanılan alış sifarişlərinə qarşı Emitentin satış sifarişini daxil etmək;
  - İstiqrazların abunə yazılışı dövründə öz müştərilərindən alış sifarişləri toplamaq;
  - Sifarişlərin uzlaşdırılması nəticəsində əmələ gələn alğı-satqı əqdləri barədə hesabat tərtib edərək Emitentə təqdim etmək.

1.2. **İstiqraz təklifinin səbəbləri və istiqrazların yerləşdirilməsindən əldə edilən vəsaitlərin istifadə edilməsi barədə ətraflı məlumat**: İstiqrazların yerləşdirilməsindən əldə olunan vəsaitlərin Gəmiçiliyin Xəzərdən kənar hövzələrdə genişlənmə strategiyasına uyğun olaraq daha iri tutumlu tankerlərin alınmasının maliyyələşdirilməsinə yönəldilməsi nəzərdə tutulmuşdur.

1.3. **Əldə olunan vəsaitlərin nəzərdə tutulan layihələri maliyyələşdirmək üçün kifayət etmədiyi təqdirdə tələb olunan əlavə pul vəsaitlərinin məbləği və mənbələri**: Bank kreditləri və bölüşdürülməmiş mənfəət hesabına maliyyələşdirilməsi nəzərdə tutulur. Bu vəsaitlərin məbləği istiqrazlardan əldə olunan vəsaitdən asılı olacaqdır.

1.4. **Əldə olunan vəsaitlərin digər müəssisələrin alışını maliyyələşdirmək, borcları qaytarmaq və ya restrukturizasiya etmək və ya Emitentin əsas fəaliyyətinə aidiyyəti olmayan aktivləri əldə etmək üçün istifadə olunması nəzərdə tutulduqda bu barədə ətraflı məlumat**: Əldə olunacaq vəsait bu bənddə göstərilən istiqamətlər üzrə istifadə olunmayacaqdır.

## 2. İstiqrazlar barədə məlumat

2.1. **Qiymətli kağızların emissiyasını tənzimləyən qanunvericilik**:

- Azərbaycan Respublikasının Mülki Məcəlləsi;
- "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu;
- "Emissiya prospektinə və informasiya memorandumuna dair tələblər haqqında Qaydalar";
- "İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında Qaydalar".

2.2. **İstiqrazların növü**: Faizli, təmin edilməmiş, sənədsiz, adlı

2.3. **Təklif edilən qiymətli kağızların sayı və nominal dəyəri (yeni buraxılan və mövcud olan istiqrazlar barədə məlumat ayrı-ayrılıqda göstərilməklə)**: Yeni buraxılan istiqrazların sayı 150 000 (yüz əllim min) ədəd, hər bir istiqrazın nominal dəyəri isə 1 000 (min) ABŞ dolları təşkil edir. Emitentin dövriyyədə olan istiqrazı mövcud deyil.

2.4. **İstiqrazların valyutası**: ABŞ dolları

2.5. **İstiqrazların saxlanması və onlara hüquqların uçotunu aparan Mərkəzi depozitarın olduğu yer**: Azərbaycan Respublikası, Bakı şəhəri, AZ1141, Həsən bəy Zərdabi prospekti 2A, Şokolad Tauer.

2.6. **Təklif olunan istiqrazların reytinqi (olduqda) və bu reytinqə təsir edən amillər barədə məlumat**: Təklif edilən istiqrazların reytinqi mövcud deyil.

2.7. **İstiqrazlarla təsbit olunan hüquqlar, onların həyata keçirilmə qaydası və onlara dair məhdudiyyətlər**: İstiqraz mülkiyyətçiləri aşağıdakı hüquqlara malikdirlər:

- Emitentin ləğvi, yaxud Emitentin kreditorları qarşısında olan öhdəliklərinin icrasına dair təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan edildikdə istiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;
- İstiqrazların tədavül müddəti bitdikdə istiqrazların nominal dəyərini Emitentdən almaq;
- İstiqrazların tədavül müddəti ərzində istiqrazların nominal dəyərindən illik 6 (altı) faiz həcmində kupon ödənişi almaq;
- İstiqraz mülkiyyətçiləri öz hüquqlarını bilavasitə özləri və ya qanunvericiliklə nəzərdə tutulmuş qaydada səlahiyyətli nümayəndələri vasitəsi ilə həyata keçirə bilərlər.
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

İstiqrazlarla təsbit olunan hüquqların həyata keçirilməsinə dair qanunvericiliklə müəyyən edilmiş hallardan başqa məhdudiyyətlər nəzərdə tutulmamışdır.

2.8. **İstiqrazlar üzrə gəlirliyin faiz dərəcəsi (müəyyən olduqda)**: İllik 6 (altı) faiz

2.9. **İstiqrazların və faizlərin ödənilməsi tarixi və müddəti**: İstiqrazlar üzrə ödənilməli olan faizlər istiqrazların tədavül müddətində (buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən 5 (beş) il müddətində (ildə günlərin sayı 360 (üç yüz altmış) olaraq götürülməklə) hər 6 (altı) aydan bir (ayda günlərin sayı 30 (otuz) götürülməklə) ödənilir. Ödəniş tarixi qeyri-iş gününə təsadüf etdikdə, ödəniş növbəti ilk iş günü həyata keçirilir. Ödənişlər bank hesabları vasitəsilə nağdsız qaydada yerinə yetirilir. İstiqrazların nominal dəyəri sonuncu faiz (kupon) ödənişi ilə birlikdə ödəniləcəkdir.

2.10. **Faiz və əsas borcun ödənilməsi ilə bağlı iddia müddəti**: Əsas borc və faizin ödənilməsi ilə bağlı iddia müddəti Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 372-384-cü maddələri ilə tənzimlənir.

2.11. **Faiz dərəcəsi müəyyən olunmadığı halda, istiqrazın faiz dərəcəsinin hesablanması üsulu:** Faiz dərəcəsi müəyyən olunmuşdur.

2.12. **Bazarda baş verən hadisələrin istiqrazların baza aktivinə (olduqda) və istiqrazlar üzrə hesablaşmalara mənfi təsiri barədə məlumat. Belə halların tənzimlənməsi qaydaları və ya prosedurları**: İstiqrazlar üzrə baza aktivi mövcud deyil. Bazarda baş verən hadisələr istiqrazlar üzrə hesablaşmalara mənfi təsir göstərməyəcəkdir.

2.13. **Ödənişlər üzrə hesablaşma agentinin adı:** İstiqrazlar üzrə faiz (kupon) ödənişləri və nominal dəyər üzrə əsas ödəniş Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi vasitəsilə həyata keçiriləcəkdir. İstiqrazların yerləşdirilməsi zamanı pul vəsaitlərinin toplanması "PAŞA Kapital İnvestisiya Şirkəti" QSC-nin hesablaşma agenti olan "PAŞA Bank" ASC vasitəsi ilə yerinə yetiriləcəkdir.

2.14. **Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat**: Təklif edilən istiqrazlar təminatsızdır.

2.15. **İstiqrazların geri satın alınmasının şərtləri** İstiqrazın tədavül müddəti bitməmiş emitentin istiqrazları investorlardan geri almaq öhdəliyi yoxdur, lakin istiqrazın tədavül müddətinə 2 (iki) il qalmış, emitent istiqrazları nominal dəyər ilə investorlardan geri almaq hüququ qazanır.

2.16. **Gəlirlik dərəcəsi və onun hesablanması qaydası**: İstiqrazlar üzrə faiz (kupon) gəlirliyi illik 6 (altı) faiz təşkil edir. İstiqrazlar üzrə toplanmış faizlərin hesablanması aşağıdakı düstura uyğun olaraq aparılır:

$$TF = \frac{N * D * G}{360}$$

Burada:

$TF$ – Bir istiqraz üzrə toplanmış faizlər (ABŞ dolları ilə ifadə olunur);

$N$ – Bir istiqrazın nominal dəyəri (1 000 (bir min) ABŞ dolları);

$D$ – İstiqrazların illik faiz dərəcəsi (6 (altı) faiz);

$G$ –. Son faiz (kupon) ödənişindən keçən günlərin sayı.

2.17. **İnvestorları təmsil edən təşkilat barədə (olduqda) məlumat**: Mövcud deyil.

2.18. **İstiqrazların emissiyası haqqında qərarın qəbul edilməsi tarixi, nömrəsi və qərarı qəbul etmiş Emitentin idarəetmə orqanının adı**: Azərbaycan İnvestisiya Holdinqinin Müşahidə Şurasının 2022-ci il 7 dekabr tarixli 21 nömrəli protokolu.

2.19. **İstiqrazların əldə edilməsi üçün məhdudiyyətlər (olduqda)**: Hər hansı məhdudiyyətlər nəzərdə tutulmamışdır.

2.20. **İstiqraz üzrə gəlirlərdən mənbədə verginin tutulması barədə məlumat. İstiqraz üzrə gəlirlərdən mənbədən verginin tutulması barədə emitentin öhdəliyi**: İstiqrazlar üzrə ödənilən faiz (kupon) ödənişindən ödəmə mənbəyində tutulan vergidən fiziki şəxslər 2028-ci ilin fevral ayının 1-dək azaddırlar. Hüquqi şəxslərin istiqrazlar üzrə əldə etdiyi faiz gəlirləri mənfəət vergisinə cəlb olunur. İstiqrazların tədavüldə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat Emitent və ya anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır. İstiqraz üzrə gəlirlərdən mənbədən verginin tutulması barədə Emitentin öhdəliyi müqavilə əsasında ödəniş agentinə ötürüləcəkdir.

## 3. Təklifin şərtləri

3.1. **Təklifin və yerləşdirmənin başlanma və başa çatma tarixləri:** İstiqrazlar abunə yazılışı vasitəsi ilə təklif ediləcəkdir. İstiqrazlara abunə yazılışı nəzarət orqanı (Azərbaycan Respublikasının Mərkəzi Bankı) tərəfindən istiqrazların buraxılışının dövlət qeydiyyatına alınması və bu Baza Emissiya Prospektinin üzrə müvafiq buraxılışın Yekun Şərtlərinin təsdiq edilməsindən sonra 3 (üç) iş günü ərzində başlanacaq və başlandığı tarixdən 2 (iki) ay müddətinə başa çatacaqdır. Abunə yazılışının başlanması və başa çatma tarixləri buraxılışın anderrayteri PAŞA Kapital İnvestisiya Şirkəti QSC tərəfindən öz veb saytında və kütləvi informasiya vasitələrində açıqlanacaqdır. Abunə yazılışı dövründə istiqrazları əldə etmək istəyən investor PAŞA Kapital İnvestisiya Şirkəti QSC-yə müraciət edə bilər. Abunə yazılışı müddəti bitdiyi tarixdən 5 (beş) iş günü ərzində istiqrazların Bakı Fond Birjası QSC-nin ticarət platformasında yerləşdirilməsi başlanacaqdır. Yerləşdirmənin başlanma və başa çatma tarixləri barədə məlumat PAŞA Kapital İnvestisiya Şirkəti QSC tərəfindən öz veb saytında və kütləvi informasiya vasitələrində açıqlanacaqdır.

3.2. **Təklifin qüvvədə olduğu müddət ərzində prospektə düzəlişlərin edilə biləcəyi müddət və düzəlişlərin edilməsi qaydası:** Baza Emissiya Prospektində dəyişikliklərin dövlət qeydiyyatına alınması üçün ərizə müvafiq qərarın qəbul edildiyi gündən 5 (beş) iş günü ərzində qanunvericilikdə müəyyən edilmiş orqana (quruma) təqdim edilir. Baza Emissiya Prospektində dəyişikliklər müvafiq ərizənin daxil olduğu gündən 10 (on) iş günü ərzində dövlət qeydiyyatına alınır. Qeyd olunan dəyişikliklər dövlət qeydiyyatına alındığı tarixdən 5 (beş) iş günü ərzində vahid məlumat resursunda ("Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş məlumatların dərc edildiyi, ictimaiyyət üçün açıq olan və bu qanunla müəyyən edilmiş orqan (qurum) tərəfindən yaradılan avtomatlaşdırılmış sistem), fond birjasının və Emitentin internet səhifəsində açıqlanır və açıqlandığı tarixdən 15 (on beş) iş günü bitdikdən sonra qüvvəyə minir.

3.3. **Təklifin dayandırılması və ya təxirə salınması hallarının izahı:** "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununun 9-cu maddəsində nəzərdə tutulmuş hallarda təklif dayandırıla bilər. Bu barədə məlumat Emitent tərəfindən vahid məlumat resursunda ("Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının qanununda nəzərdə tutulmuş məlumatların dərc edildiyi, ictimaiyyət üçün açıq olan və bu qanunla müəyyən edilmiş orqan (qurum) tərəfindən yaradılan avtomatlaşdırılmış sistem) fond birjasının və Emitentin internet səhifəsində açıqlanır.

3.4. **İstiqrazlara abunə yazılışı keçirildikdə aşağıdakı məlumat:** İstiqrazlar abunə yazılışı (kütləvi təklif) üsulu ilə yerləşdiriləcəkdir. İstiqrazlar üzrə abunə yazılışı 2 (iki) ay təşkil edəcəkdir və abunə yazılışının müddəti istiqrazlar dövlət qeydiyyatına alındıqdan sonra 3 (iş) günü ərzində başlayacaqdır.

3.4.1. **Abunə yazılışı zamanı sifarişlərin geri çağırılması və abunəçilər tərəfindən ödənmiş artıq məbləğin geri qaytarılması qaydası və müddəti:** Abunə yazılışı müddəti ərzində investorlar tərəfindən verilmiş sifarişlərin geri qaytarılmasına və ya dəyişdirilməsinə yol verilmir. İstiqrazların yerləşdirilməsindən sonra, abunə yazılmış investorların icra edilməmiş sifarişləri üzrə məbləğ (artıq məbləğ) həmin investora xidmət edən investisiya şirkəti tərəfindən yerləşdirmə müddətinin bitməsi tarixindən etibarən 3 (üç) iş günü ərzində qaytarılacaqdır.

3.4.2. **Abunə yazılışının (investisiya etmək üçün qiymətli kağızların sayına və ya məcmu miqdarına) minimum və/və ya maksimum məbləği:** Təklif edilən istiqrazların minimal satış dəyəri 1 000 (min) ABŞ dolları təşkil edəcəkdir. Bu məbləğdən aşağı qiymətə verilən sifarişlərin qəbul edilməsinə yol verilmir. Abunə yazılışı dövründə toplanılan sifarişlərin həcmi Yekun Şərtlər üzrə təklif edilən istiqrazların həcmindən çox olduğu təqdirdə,

yerləşdirmə verilmiş sifarişlərin həcminə uyğun olaraq mütənasib şəkildə həyata keçiriləcəkdir.

3.5. **İstiqrazlar hərrac vasitəsilə yerləşdirildikdə, hərracın keçirilməsi qaydası:** İstiqrazlar abunə yazılışı keçirilməklə yerləşdiriləcəkdir.

3.6. **İstiqrazların dəyərinin ödənilməsi və investorların istiqrazlarla təchizatı şərtləri və qaydası**: İstiqrazların yerləşdirilməsi nəticəsində istiqrazlar investorların depo hesabına köçürülərək dondurulacaq, pul vəsaitləri isə anderrayterin hesablaşma agentində açılmış bank hesabına köçürüləcəkdir. Emissiyasının yekunları haqqında hesabat qanunvericiliklə müəyyən edilmiş orqan (qurum) tərəfindən təsdiq edildikdən sonra, investorların depo hesabında olan istiqrazlar dondurulmadan azad ediləcək, pul vəsaitləri isə Emitentin bank hesabına köçürüləcəkdir.

3.7. **Potensial investorların müxtəlif kateqoriyaları barədə məlumat:** Emissiya ediləcək istiqrazlar həm fiziki, həm də hüquqi şəxslər tərəfindən əldə edilə bilər.

3.8. **İstiqrazların satışının başlanması barədə investorlara bildirişlərin göndərilməsi qaydası və satışın xəbərdarlıq edilməzdən öncə başlaya bilib-bilməməsi barədə məlumat:** İstiqrazlar abunə yazılışı vasitəsi ilə təklif ediləcəkdir. İstiqrazlara abunə yazılışı nəzarət orqanı (Azərbaycan Respublikasının Mərkəzi Bankı) tərəfindən istiqrazların buraxılışının dövlət qeydiyyatına alınması və bu Baza Emissiya Prospektinin müvafiq buraxılışı üzrə Yekun Şərtlərinin təsdiq edilməsindən sonra 3 (üç) iş günü ərzində başlanacaq və başlandığı tarixdən 2 (iki) ay ərzində başa çatacaqdır. Abunə yazılışının başlanması və başa çatma tarixləri buraxılışın anderrayteri PAŞA Kapital İnvestisiya Şirkəti QSC tərəfindən öz veb saytında və kütləvi informasiya vasitələrində açıqlanacaqdır. Abunə yazılışı dövründə istiqrazları əldə etmək istəyən investor PAŞA Kapital İnvestisiya Şirkəti QSC-yə müraciət edə bilər. Abunə yazılışı müddəti bitdiyi tarixdən 5 iş günü ərzində istiqrazların Bakı Fond Birjası QSC-nin ticarət platformasında yerləşdirilməsi başlanacaqdır. Yerləşdirmənin başlanma və başa çatma tarixləri barədə məlumat PAŞA Kapital İnvestisiya Şirkəti QSC tərəfindən öz veb saytında və kütləvi informasiya vasitələrində açıqlanacaqdır.

3.9. **İstiqrazların təklif qiyməti. Qiymətin məlum olmadığı təqdirdə istiqrazların qiymətin müəyyənləşdirmə metodunu göstərilməklə bu prosesdə iştirak edən və məsuliyyət daşıyan şəxslər barəsində məlumat:** Bir istiqrazın təklif qiyməti 1 000 (bir min) ABŞ dolları təşkil edir.

3.10. **İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:**

**Vergilər**. İstiqrazlar üzrə ödənilən faiz (kupon) ödənişindən ödəmə mənbəyində tutulan vergidən fiziki şəxslər 2028-ci ilin fevral ayının 1-dək azaddırlar. Hüquqi şəxslərin istiqrazlar üzrə əldə etdiyi faiz gəlirləri mənfəət vergisinə cəlb olunur. İstiqrazların tədavüldə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat Emitent və ya anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır.

**Xərclər**. İstiqrazın əldə olunması ilə bağlı xidmət haqqı xərcləri investisiya şirkətinin tarif siyasətindən asılıdır. Bu barədə məlumat almaq istəyən investorlar onlara investisiya xidməti göstərən investisiya şirkətinə müraciət etməlidir.

3.11. **İstiqrazları öhdəlik götürməklə və ya öhdəlik götürmədən yerləşdirən anderrayter barədə məlumat (adı, lisenziyası və ünvanı). Xidmət haqqı:**

**Adı:** "PAŞA Kapital İnvestisiya Şirkəti" QSC (anderrayter istiqrazları öhdəlik götürmədən yerləşdirilməsini həyata keçirəcəkdir).

**Lisenziyası:** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən 09.03.2016-cı il tarixində verilmiş 088806 nömrəli "investisiya şirkəti fəaliyyəti"nə dair Lisenziya

**Ünvanı:** Bakı şəhəri, Cəfər Cabbarlı küçəsi 44 (Caspian Plaza), AZ1065, Azərbaycan
**Xidmət haqqı:** Ümumi yerləşdirilmiş məbləğin 0,3 (sıfır tam onda üç) faizi həcmində müəyyən olunmuşdur.

3.12. **Anderraytinq müqaviləsinin bağlandığı və ya bağlanacağı vaxtı:** 21.12.2022.

4. Ticarətə buraxılma və onun tənzimlənməsi

4.1. **İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda istiqrazların ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri:** İstiqrazların kütləvi təklif üsulu ilə ilkin yerləşdirilməsi bu Baza Emissiya Prospektinin müvafiq buraxılışı üzrə Yekun Şərtlərinin dövlət qeydiyyatına alınmasından sonra "Bakı Fond Birjası" QSC-nin ticarət platforması vasitəsilə həyata keçiriləcəkdir. İstiqrazların listinqə daxil edilməsi ilə bağlı müraciət istiqrazın buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir.

4.2. **Market meyker(lər) barədə məlumat**: Mövcud deyil. Bazar şərtlərini nəzərə alaraq, Emitent istiqrazların likvidliyinin qorunması və ya artırılması məqsədi ilə market-meyker(ləri) cəlb edə bilər.

5. Kredit reytinqləri: Mövcud deyil.

## F. İstiqrazlar haqqında ümumi məlumat

1. Qiymətli kağızların emissiyasını tənzimləyən qanunvericilik:
   - Azərbaycan Respublikasının Mülki Məcəlləsi;
   - "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu;
   - "Emissiya prospektinə və informasiya memorandumuna dair tələblər haqqında Qaydalar";
   - "İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında Qaydalar".

2. Təklif olunan qiymətli kağızların reytinqi və bu reytinqə təsir edən amillər barədə məlumat:
   Təklif olunan istiqrazların reytinqi mövcud deyil.

3. İstiqrazların əldə edilməsi üçün məhdudiyyətlər (olduqda): İstiqrazların əldə edilməsi üçün heç bir məhdudiyyət nəzərdə tutulmamışdır.

4. İstiqraz üzrə gəlirlərdən mənbədə verginin tutulması barədə məlumat. İstiqraz üzrə gəlirlərdən mənbədən verginin tutulması barədə emitentin öhdəliyi: İstiqrazlar üzrə ödənilən faiz (kupon) ödənişindən ödəmə mənbəyində tutulan vergidən fiziki şəxslər 2028-ci ilin fevral ayının 1-dək azaddırlar. Hüquqi şəxslərin istiqrazlar üzrə əldə etdiyi faiz gəlirləri mənfəət vergisinə cəlb olunur. İstiqrazların tədavüldə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat Emitent və ya anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır. İstiqraz üzrə gəlirlərdən mənbədən verginin tutulması barədə Emitentin öhdəliyi müqavilə əsasında ödəniş agentinə ötürüləcəkdir.

5. Potensial investorların müxtəlif kateqoriyaları barədə məlumat: Emissiya ediləcək istiqrazlar həm fiziki, həm də hüquqi şəxslər tərəfindən əldə edilə bilər.